www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 aprel 2016-cı il Cümə № 68 (6389) Qiyməti 60 qəpik

Xəbər

## Əkrəm Əylisliyə qarşı cinayət işi qaldırıldı

yazısı səh.5-də

Gündəm

### Gürcü deputatlar Avronestdə Azərbaycana qarşı ermənilərlə birləşdi

Gürcüstandan olan nümayəndələr Avronest Parlament Assambleyasında düşmənlə eyni mövqe sərgilədi; Milli Məclisin ötən il verdiyi qərar müzakirə və dartışma mövzusuna çevrilir

yazısı səh.5-də

### Dolların qiyməti düşür ki, yenə bahalaşsın?

yazısı səh.11-də

### Bakıda Öcalanı təbliğ edən kitabın satılması iddiası aranı qatdı

yazısı səh.10-da

### Himnimizi təhqir edən deputata sərt cavablar

yazısı səh.6-da

*Tofiq Yaqublu:*

### "Nərgiz olmayandan sonra azadlıq şirin olmur"

yazısı səh. 8 və 9-da

### Nardaranlıların məhkəməsi apreldə başlayır

yazısı səh.10-da

### Siyasətçilər 1 apreldə necə aldadılmalarından danışdılar

yazısı səh.15-də

### Sahibkar "özümü MTN generalının evi qarşısında yandıracam", deyir

yazısı səh.12-də

### Keçmiş siyasi dustaqlar Müsavatda toplandılar

yazısı səh.3-də

### Bakı Hava Limanı necə qorunur-əməkdaşımızın gördükləri...

yazısı səh.13-də

### Jurnalistin ölümündə təqsirləndirilənlər son söz dedilər

yazısı səh.2-də

# Ölkəmiz təhdid altında...

## İŞİD VƏ ERMƏNİSTANDAN "ÇİRKLİ BOMBA" HƏDƏLƏRİ - YENİ TERROR TƏHLÜKƏSİ CİDDİLƏŞİR

İşğalçı ölkənin Azərbaycanı, terrorçu təşkilatın isə dünyanı oxşar formada hədələməsi təsadüfdürmü?; Rəsmi Bakı məsələni nüvə sammitində və BMT Təhlükəsizlik Şurasında qaldırıb İrəvandan cavab tələb eləməlidir...




yazısı səh.3-də

## Kerri-Əliyev görüşü - Vaşinqtonda dəyişən tarix

**Ağ Ev Azərbaycana tam dəstəyini ifadə etdi; ekspertlər prezidentin ABŞ-a səfərinin ilkin nəticələrini dəyərləndirdi:** "Son 13 ildə ilk dəfədir ki..."

yazısı səh.4-də



*Siyavuş Novruzov:*

### "Azərbaycan özünə "böyük qardaş" axtarmır"

yazısı səh.7-də



Kəmalə İsmayılova

### Somalidə öldürülən azərbaycanlı qadının cənazəsi bu gün vətənə gətiriləcək

yazısı səh.10-da



### Cəmil Həsənlinin Milli Şuradan istefası xəbəri yayıldı

yazısı səh.5-də



## Prezident Corc Buşun aparatının rəhbəri ilə görüşüb

**Azərbaycan prezidenti İlham Əliyev Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Nyu-Hempşir ştatının sabiq qubernatoru, ABŞ-ın sabiq prezidenti Corc Buşun aparatının rəhbəri Con Sununu ilə görüşüb.**

Görüşdə Azərbaycanla ABŞ arasında əlaqələrin indiki vəziyyəti və gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.

## Şikayət edilən 63 saylı marşrut ləğv edildi



**63 saylı marşrut üzrə hərəkət edən avtobus ləğv olunur. Bu haqda modern.az saytına Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən məlumat verilib.**

Bildirilib ki, marşrut xətlərində sürücülər tərəfindən "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın ciddi şəkildə pozulması hallarına son qoyulması ilə əlaqədar, mütəmadi olaraq marşrut xətlərinin müvəqqəti istifadəçilərinə xəbərdarlıqlar edilməsinə baxmayaraq qayda pozuntuları hələ də təkrarlanır.

"Son zamanlar 63 saylı marşrut xətti üzrə hərəkət edən avtobuslarla bağlı xeyli sayda qayda pozuntuları aşkarlanıb. Belə ki, cari ilin fevral ayının 28-də 63 saylı marşrut xətti üzrə hərəkət edən sərnişin avtobusu 2 piyadanı vurub və nəticədə 1 piyada vəfat edib.

Qeyd edilən marşrutda fəaliyyət göstərən avtobusların istismara yararsız və qəzalı vəziyyətdə olması, dəfələrlə qayda pozuntularına yol verməsi, o cümlədən mövcud marşrut xəttini dəyişməsi halları sərnişindaşıma xidmətinə mənfi təsir göstərdiyi üçün Bakı Nəqliyyat Agentliyi tərəfindən 63 saylı marşrut xəttinin fəaliyyəti 01 aprel 2016-cı il tarixindən etibarən dayandırılacaq".

Həmçinin qeyd edilib ki, Bakı Nəqliyyat Agentliyinin marşrut xətlərində apardığı təkmilləşdirmə işlərinin davamı olaraq 3 saylı marşrut xəttində də dəyişikliklər edilib:

"Belə ki, "BakuBus" MMC-yə məxsus 3 saylı marşrut xətti 01 aprel 2016-cı il tarixindən etibarən "Şəhidlər Xiyabanı" - Badamdar şossesi - Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektindən keçməklə hərəkətini davam etdirəcək".

## Azərbaycanın hansı rayonlarında qızlar daha tez ərə verilir?

**2015-ci ildə Azərbaycanda erkən nikah faktlarının ən çox qeydə alındığı rayonların adları açıqlanıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov APA-ya bildirib ki, 2015-ci ildə erkən nikah halları ən çox Şabran (18 fakt), Ağsu (22 fakt), Salyan (27 fakt) və Şəkidə (37 fakt) qeydə alınıb.**

Şöbə müdiri əlavə edib ki, ötən il Lerik və İsmayıllı rayonlarında erkən nikah faktları qeydə alınmayıb: "2015-ci ildə erkən nikahlar Şamaxı (2 fakt), Hacıqabul (10 fakt), Saatlı (11 fakt), Sabirabad (13 fakt) rayonlarında da qeydə alınıb".

E.Səfərov qeyd edib ki, 2015-ci ildə erkən nikah faktlarına görə 52 cinayət işi açılıb.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Jurnalistin ölümündə təqsirləndirilənlər son söz dedilər



**Martın 31-də Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist Rasim Əliyevin qətli ilə bağlı təqsirləndirilən Elşən İsmayılov və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

"Qafqazinfo"nun xəbərinə görə, hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərdən Elşən İsmayılov, Samir Mustafayev və Camal Məmmədov son söz deyib.

**Camal Məmmədov** bildirib ki, istintaq və məhkəmə düzgün aparılmayıb: "Dövlət ittihamçısı özünü hakimlərin vəkili kimi aparır. Bizim günahımız var, amma xuliqanlıq etmişik, adam öldürməmişik. Cənab hakim, mən sizi başa düşürəm, bilirəm ki, burada sizlik heç nə yoxdur. Danışdıqca ürəyim partlayır. Xahiş edirəm, ədalətli qərar verin".

**Samir Mustafayev deyib ki, onun tək etdiyi şey Pərvizin zəngindən sonra Kənangilə yeri göstərmək olub:** "Özümü təqsirli bilmirəm. Burdakılardan da heç birini əvvəldən tanımamışam. Davada da Rasimə yaxınlaşıb əl verib yerdən qaldırmışam. Hamısı da videoda var. Əgər video olmasaydı, yəqin bizi güllələyərdilər".

**Elşən İsmayılov isə çıxışında deyib ki, onlar Rasimi yox, Rasim onları bədbəxt edib:** "Mənim pulqabını götürməyim sübuta yetirilməyib. Mən adam öldürmək istəsəydim, başımda maska, əlimdə bıçaq, ya silahla gecə gedərdim. Mənim günahım dava etməkdir, adam öldürmək yox. Rasim bizi tora salıb kamera altına çağırdı. Bizi çayxanaya çağırsaydı, belə olmazdı. Biz Rasimi yox, Rasim bizi bədbəxt edib. Müstəntiq bizə dedi, sevinin ki, cibinizdən narkotik çıxmayıb. Rasimin anası bizə gülürdü, o da Allah məhkəməsi qarşısında cavab verəcək. Etdiklərimə görə peşmanam".

Məhkəmə kollegiyası hökm elan etmək üçün müşavirəyə çıxıb. Prosez sabah davam etdiriləcək.

**Qeyd edək ki, ötən iclasda Kənan Mədətov çıxış edərək peşman olmadığını deyib:** "Heç nəyə görə peşman deyiləm, çünki heç nə etməmişəm".

**Arif Əliyev isə ədalətli qərar verilməsini istəyib:** "Ailə vəziyyətimi nəzərə alın".

Dövlət ittihamçısı Elşən İsmayılovun 14 il, Arif Əliyevin 14 il, Camal Məmmədovun 12 il, Samir Mustafayevin 11 il 6 ay, Kənan Mədətovun 11 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.



## Həcc ziyarətinin qiymətləri məlum oldu

**Azərbaycanda bu il Həcc ziyarətinə gedəcək zəvvarlar üçün ziyarət xidmətlərinin qiyməti açıqlanıb.**

Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya verilən məlumata görə, bu-ilki Həcc ziyarətinin qiyməti müvafiq olaraq 3500 və 4500 ABŞ dolları təşkil edir.

Gündə iki dəfə yemək verilən və komfortu az olan hotellərdə qalanlar üçün ümumi ziyarət xərci 3500 dollar, daha yaxşı şəraitli və yeməkləri daha çeşidli olan hotellərdə qalmaq istəyənlər üçün ümumi xərc isə 4500 dollardır.



## Azərbaycanda uşaq ölümü 3 dəfə azalıb

**"Hazırda Azərbaycanda uşaqlar arasında ölüm göstəricisi 10,2 promilledir. Uşaq ölümlərinin statistikası 1992-ci ilin göstəricisi ilə müqayisədə 3 dəfə azalıb". Virtualaz.org saytı xəbər verir ki, bunu K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, ölkənin baş pediatrı Nəsib Quliyev deyib.**

N.Quliyev bildirib ki, 2014-cü ildə 1693 uşaq dünyasını dəyişib: "Uşaq ölümləri göstəricisi Almaniya, İsveç, Yaponiya kimi inkişaf etmiş ölkələrdə 4 faizdir. Türkiyədə isə uşaq ölümləri 15 promilleyə yaxındır. Azərbaycan uşaq ölümlərinin göstəricisini azaltmaq üçün tədbirlər həyata keçirir".

Baş pediatr beynəlxalq təşkilatların uşaq ölümləri ilə bağlı hesabatına da münasibət bildirib. "Bəzi beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndələri sorğu yolu ilə uşaq ölümləri ilə bağlı hesabat hazırlayır. Dəfələrlə bu məsələ il bağlı YUNİSEF-lə söhbət etmişik. Biz onlardan soruşuruq ki, niyə doğum üzrə göstəriciləri qəbul edirlər, amma ölüm üzrə rəsmi statistikanı qəbul etmirlər. Görünür, öz ölkələrindən artıq pul almaq üçün onlara belə hesabatlar lazımdır".

N.Quliyev qeyd edib ki, Azərbaycan qızılca və məxmərəyin qarşısını almaqla 54 ölkə arasında ilk onluqda yer alıb.

## Ebru Rzanın aldığı villanı satır

**Azərbaycan əsilli iş adamı Rza Zərrabın həbsindən sonra çətin günlər yaşayan Ebru Gündeş villasını satır. "Qafqazinfo" Türkiyə KİV-nə istinadən xəbər verir ki, müğənninin Kanlıcada yerləşən əkiz villasını satışa çıxardığı məlum olub.**

O, mətbuat işçilərinin diqqət mərkəzində olan malikanənin satışı üçün vəkillərinə müraciət edib.

Ebrunun hara köçəcəyi barədə hələlik məlumat verilməyib.

Qeyd edək ki, Rza Zərrab 2011-ci ildə "Mehmet Arif Bey Yalıları"ndan ikisini ad günündə Ebru Gündeşə hədiyyə almışdı. Əkiz villanın 26 milyon dəyərində olduğu bəlli olmusdu.



## Məmur olmaq istəyənlər üçün test imtahanları başlayır

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 9 fevral 2016-cı il tarixdən 5 dövlət orqanında inzibati vəzifələrin beşinci təsnifatına uyğun olan 92 vakant vəzifənin tutulması üçün elan etdiyi müsabiqənin ilk mərhələsi olan test imtahanı mərhələsi aprelin 1-dən başlayır.**

Komissiyanın mətbuat xidmətindən modern.az-a verilən məlumata görə, müsabiqədə iştirak etmək üçün 2687 nəfər qeydiyyatdan keçib. Onlardan 2477 nəfəri Dövlət Statistika Komitəsinin mərkəzi aparatında olan 75 vakant vəzifə üzrə qeydə alınıb.

Vakant vəzifələr üzrə ən böyük müsabiqə vəziyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Maliyyə və təminat şöbəsində baş məsləhətçi vəzifəsi (48 namizəd) olub.

Test imtahanı qrafiki komissiyanın internet saytında (www.dqmk.gov.az) yerləşdirilib.

Təqdim edilən qrafikdə namizədlər dövlət orqanları üzrə iddia etdikləri inzibati vəzifələr üçün nəzərdə tutulmuş test imtahanı tarixini və vaxtını aktiv etməklə öz adlarını tapa bilərlər. Komissiyada mobil telefon nömrəsi və elektron poçt ünvanı qeydə alınmış namizədlərə test imtahanının keçirilmə vaxtı barədə qısa SMS və elektron məktub göndərilib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 68 (6389) 1 aprel 2016

# Ölkəmiz təhdid altında...

**Vaşinqtonda IV Qlobal Nüvə Təhlükəsizliyi Sammiti öz işini davam etdirir. Sammitin gündəliyində duran əsas mövzu terror təşkilatlarının nüvə materialları, o sırada "çirkli" və "mini-nüvə" bombalarının köməyi ilə şəhərlərə hücum təhlükəsi ilə bağlıdır.**




# İŞİD və Ermənistandan "çirkli bomba" hədələri - yeni terror təhlükəsi ciddiləşir

## İşğalçı ölkənin Azərbaycanı, terrorçu təşkilatın isə dünyanı oxşar formada hədələməsi təsadüfdürmü?; Rəsmi Bakı məsələni nüvə sammitində və BMT Təhlükəsizlik Şurasında qaldırıb İrəvandan cavab tələb eləməlidir...

**"La Stampa" qəzeti** nüvə sammitlərinin təşəbbüsçüsünün ABŞ prezident Barak Obama olduğunu qeyd edərək yazır: "İlk belə sammit 2009-cu ildə Praqada olub və atom silahının təhlükəsizliyinin və onun terrorçuların əlinə keçməsinin önlənməsinin təkmilləşdirilməsinə həsr olunub. Dünyada bu cür silahların yaradılması üçün istifadə oluna biləcək 2 min kub ton material var. Onların heç də hamısı yaxşı mühafizə olunmur. Barak Obama belə bir təşəbbüslə hələ İŞİD peyda olmamışdan öncə çıxış edib. O vaxt əsas hədə "əl-Qaida" və ona bağlı qruplardan qaynaqlanırdı".

**Nəşrin yazdığına görə, o vaxtdan situasiya çox dəyişib:** "Həm Parisdə, həm də Brüsseldə törədilən terror aktları İŞİD-in Qərb şəhərlərinə zərbə endirmək qabiliyyətini nümayiş etdirib. Nəzərə alanda ki, bu terror təşkilatı artıq kimyəvi silaha malikdir, Ağ Evdə İŞİD-in nüvə silahına da can atdığına şübhə eləmirlər. "Bizə bəllidir ki, terror təşkilatları nüvə materiallarına, atom bombalarına çıxış əldə eləməyə çalışırlar", - deyə Amerika prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini Ben Rods jurnalistlərə bildirib".

**Qəzet bunula bağlı iki əsas təhlükənin mövcudluğuna diqqət çəkib:** "Birincisi - "çirkli bomba"dır. Onu mülki təyinatlı radioaktiv materiallardan hazırlamaq və adi başlıqların köməyi ilə hərəkətə gətirmək mümkündür. Belə materiallar xəstəxanalarda və universitetlərin laboratoriyalarında olur və çox hallarda da onların uçotu pis aparılır. İkinci hədə - atom bombasıdır. Doğrudur, ona sahiblənmək asan deyil. Ancaq nəzərə alsaq ki, Pakistan kimi ölkələrdə hazırda kiçik ölçülü taktiki nüvə silahlarına stavka edilir, o zaman bunu istisna eləmək olmaz. İŞİD-çilərin Belçikadakı AES-lərin şəkillərini çəkməsi aydın olandan sonra son zamanlar bütün bu təhlükələrə daha biri əlavə olunub. Hələlik söhbət konkret planlardan getmir, amma belə bir şeyi də istisna eləmək olmaz".

***

Yeri gəlmişkən, işğalçı Ermənistanın da Azərbaycana qarşı neçə vaxtdır "çirkli bomba" hazırlığı içində olması barədə məlumatlar yayılır. Son olaraq "Komandos" ləqəbi ilə tanınan erməni general-mayor Arkadi Ter-Tadevosyan bir neçə gün öncə "Lragir" portalına müsahibəsində buna açıq işarə vuraraq Azərbaycanı təhdid edib. Bu barədə az aşağıda. Hələliksə yada salaq ki, 2014-cü ildə Azərbaycan saytlarında ermənilərin Gürcüstanda "çirkli bomba" yığmağa cəhd edə biləcəkləri barədə məlumatlar yer almışdı.

O zaman Gürcüstanın hüquq-mühafizə orqanlarının əməkdaşları ölkəyə radioaktiv Sezium-137 tərkibli zavod konteynerini gətirmək istəyən iki Ermənistan vətəndaşını saxlamışdı. Şübhəli şəxslər 1965 və 1966-cı il təvəllüdlü iki kişi idi. Onlar "Sadaxlo" nəzarət-buraxılış məntəqəsinin yaxınlığında Gürcüstanla Ermənistanın sərhədində xüsusi əməliyyat nəticəsində tutulmuşdular. Lakin nə qədər Seziumun sərhəddən keçirilməsinə cəhd göstərilməsi haqda məlumat yox idi. İki il əvvəl saxlanılmış şəxslərə qarşı Gürcüstan Cinayət Məcəlləsinin 2 maddəsi *(gömrük qaydalarının pozulması və radioaktiv maddələrlə qeyri-qanuni davranış)* üzrə cinayət işi başlanmışdı.

Bu yerdə məlumat üçün onu da bildirək ki, Sezium-137 - sənayedə və təbabətdə istifadə olunan radioaktiv maddədir. Lakin ondan "çirkli bomba" hazırlanmasında da istifadə oluna və bu da ərazinin yüksək radioaktiv çirklənməsinə gətirib çıxara bilər. Ter-Tadevosyan da müsahibəsində elə bunun üstünü açıb.

**Belə ki, Rusiyanın kredit müqabilində Ermənistana satmağı planlaşdırdığı silah-sursatın siyahısının Rusiya tərəfindən açıqlanmasına dair sualı cavablandıran erməni general Ermənistan ordusunun silahlarının vəziyyəti barədə yayımlanmış məlumatı şərh edərkən deyib:** "Bizdə elə silah var ki, düşmənin bundan xəbəri yoxdur. Bu silah ermənilərin əli ilə hazırlanır və ən ağır vəziyyətdə istifadə edilə bilər ki, Azərbaycan özünə gələ bilməsin. Buna görə də mən silah-sursatın siyahısını açıqlayanları çox tənqid etmirəm. Onlar göstərməyə çalışıblar ki, guya nəsə bilirlər, amma bu, Azərbaycan üçün elə də faydalı olmayıb".

**Erməni jurnalistin "Yəni Ermənistanın tamamilə başqa silahı var" sualına cavab olaraq, Ter-Tadevosyan ikibaşlı cavab verib:** "Yox, əsasən siyahıda adı çəkilənlərdir, lakin başqa silah növləri də var. Azərbaycan bunu çox gözəl bilir və onlar bu barədə bir-iki dəfə danışıblar..."

Azərbaycanda gerçəkdən də dəfələrlə Ermənistandakı Msamor Atom-Elektrik Stansiyasının (AES) işi ilə bağlı narahatlıq ifadə olunub və bildirilib ki, həmin AES-in tullantıları işğal altında qalmış torpaqlarımızda toplanır. Ermənilərin zəngin terrorçu keçmişini nəzərə alsaq, onlar bütün dünya terrorçularının arzusunu gerçəkləşdirə və bu yaxınlarda Belçikada "intiharçı-bombalar"ın nail bilmədiklərini həyata keçirə bilərlər. Çünki onun ərazisində radioaktiv maddələrə çıxış var.

***

Həm İŞİD-çilərin nüvə silahına can atması, həm də Ermənistanın öz generalının dili ilə *(Ter-Taderosyan müdafiə nazirinin müavinidir)* Azərbaycanı "çirkli bomba" ilə hədələməsi onların hər ikisinin terrorçu mahiyyətini ortaya qoyur və regiona, qlobal sülhə nə dərəcədə böyük təhlükə kəsb etdiyini göstərir.

Əslində Ermənistan bununla dünya üçün İŞİD-dən heç də az təhlükəli ölkə olmadığını nümayiş etdirdi. Hər halda, İŞİD qeyri-legitim təşkilatdırsa, Ermənistan BMT-nin tamhüquqlu üzvüdür. Odur ki, Azərbaycan tərəfinin haqqı çatır ki, məsələni IV Nüvə sammiti ilə yanaşı, BMT Təhlükəsizlik Şurasında qaldırsın və rəsmi İrəvandan dövlət səviyyəsində terrorun dəstəklənməsi və öz hərbi məmurunun dili ilə səsləndirdiyi "çirkli bomba" hədəsinə dair izahat tələb eləsin.

❑ **Analìtìk xìdmət**

# Keçmiş siyasi dustaqlar Müsavatda toplandılar

## Məhbus valideynlərinin də qatıldığı tədbirdə problemdən çıxış yolları axtarıldı

**Martın 31-də Müsavat Partiyasının qərargahında "Siyasi Məhbuslar Azərbaycan" İctimai Alyansının (SMAİA) təşkilatçılığı ilə mətbuat konfransı keçirildi. Tədbir əsasən Novruz əfvi ilə azadlığa çıxan siyasi məhbuslara həsr olunmuşdu. Amma son əfv sərəncamlarından öncəki əfvlərdə azad edilən siyasilər də mətbuat konfransında iştirak edirdilər. Tədbirə həmçinin bəzi xarici ölkə təşkilatları və səfirliklərinin nümayəndələri iştirak edirdilər.**




Konfransı giriş sözü ilə alyansın koordinatoru **Oqtay Gülalıyev** açdı. Onun sözlərinə görə, mart ayı ərzində 16 siyasi məhbus azadlığına qovuşsa da, ölkə həbsxanalarında hələ də kifayət qədər siyasi məhbus var: "Tədbir keçirməkdə məqsədimiz bir daha siyasi məhbus probleminə diqqət çəkməkdir. Həbsdən çıxanların yeri boş qalmırsa, bu, problemin həll olunmaması deməkdir".

**Daha sonra Tofiq Yaqublu çıxış etdi:** "Bir ölkədə bir siyasi məhbus belə varsa, demək, bunun sayı çoxdur. İlqar Məmmədovla bağlı Avropanın 4 qərarı var. Amma o, hələ də həbsdədir. Həbsdən çıxanda Leyla Yunusu ziyarət etdim. Dəhşətli dərəcədə dəyişib. Müalicəyə ehtiyacı var. Amma ona xaricdə müalicə olunmağa imkan vermirlər. Bu isə ona əlavə cəzadır. Belə hallar aradan qaldırılmalıdır".

**Tofiq bəyin çıxışının ardından jurnalistlər ona öz suallarını ünvanladılar. Həbsdə olarkən hansı hüquq müdafiəçilərinin onunla maraqlandığına dair suala keçmiş vicdan məhbusu belə cavab verdi:** "Novella Cəfəroğlu, Səidə Qocamanlı, Səadət Bənəniyarlı mənə baş çəkiblər. Onlara təşəkkür edirəm. Əliməmməd Nuriyev də gəlib. Bəzi hüquq müdafiəçilərinin məlum vəziyyətə görə həbsxanalara buraxılmadıqları bəllidir".

**"Belə iddialar var ki, siz və digər məhbusların azad olunması Qərblə siyasi alverin nəticəsidir" sualına başqan müavininin cavabı belə oldu:** "Qərb daha möhtəşəmdir. Dünyanı ağıllı idarə edirlər. Çünki ədalətli cəmiyyət qurublar. Hər kəslə öz dillərində danışırlar. Hakimiyyətlə də bu dili tapdılar. Azərbaycandakı prosesləri Qərb bizdən də yaxşı bilir".

**Oqtay Gülalıyevə də suallar ünvanlandı. O, azadlığa çıxan digər siyasi məhbusların tədbirdə iştirak etməməsinə belə aydınlıq gətirdi:** "Bu, xüsusi razılıq əsasında olub. Yəni özləri müəyyən ediblər. Alyansımız keçmiş məhbusların iştirakı ilə yaradılıb. Çox istərdik ki, həbsdən yeni çıxmış siyasi məhbuslar da təşkilatımıza qoşulsunlar. Mübarizə birlikdə getməlidir".

**Tofiq Yaqublu "Yeni Müsavat" qəzetində fəaliyyətini davam etdirib-etdirməyəcəyi ilə bağlı sualı belə cavablandırdı:** "Həbsxanada olduğum vaxt daim sistemli şəkildə yazılar yazmışam - Nərgiz vəfat edənə qədər. Aprelin ortalarından başlayaraq yazmıram. Artıq bir ilə çatır. Sözsüz ki, boş duran deyiləm. "Yeni Müsavat"la əməkdaşlığa yenə də hazıram. Çünki o qəzetin boynumda çox haqqı var. Həbsdə olduğum vaxt bu qəzet tərəfindən kifayət qədər informasiya, etiraf edim ki, maddi dəstək çox olub. Mən yenə yazılarımı verəcəm və əminəm ki, çap olunacaq. Azadlığa çıxdıqdan sonra "Yeni Müsavat" qəzetinə getdim. Çox gözəl qarşılandım. Onların hər birinə təşəkkür etdim. O qəzeti hələ ki qəbul edirəm. Hamı Messi ola bilməz. Bir vaxtlar "Yeni Müsavat"ın yazdıqlarını insanlar oxumağa belə cəsarət etmirdilər. Müsavat Partiyasında da fəaliyyətimi davam etdirəcəm. İş qabaqdadır".

**Başqan müavini AXCP və Milli Şura ilə Müsavatın gərgin münasibətləri ilə bağlı suala maraqlı cavab verdi:** "Münasibətlərin alınması çox çətin görünür. Bu barədə hazırda bir söz deyə bilmərəm. Uçurum çox dərinləşib".

**Tədbirdə iştirak edən məhbus valideynləri də fikirlərini dedilər. Səid Dadaşbəyli dəstəsinin üzvü Hacı Rasimin anası İradə Həşimova bildirdi ki, oğlunun səhhəti ilə bağlı vəziyyəti getdikcə pisləşir:** "Oğlum da daxil, bu şəxslər həbs ediləndə Eldar Mahmudovun əməllərinin olduğunu hər kəs gördü. Amma indi o azadlıqda, oğlum həbsdədir. MTN hadisələri başlayanda oğlumun da daxil olduğu dəstənin günahsız olduğu ortaya çıxdı. Amma yenə də onları azad etmirlər. Səid Dadaşbəylinin anası hazırda ölüm ayağındadır. Ana oğlunu bir saat da olsa görmək istəyir. Amma imkan vermirlər. Siyasi məhbuslar dindarlar və demokratlar olmaqla iki qismə ayrılıb. Övladlarımızı isə nə dindarlar, nə də demokratlar qəbul edir. Haqsızlıqlara artıq dözə bilmirik".

Alyansın koordinatoru Səid Dadaşbəyli və onun dəstəsinin üzvlərinin adlarını siyasi məhbus siyahılarına saldıqlarını bildirdi. Bununla da mətbuat konfransı başa çatdı.

❑ **Cavanşìr ABBASLI**
**Foto müəllìfìndìr**

YENİ MÜSAVAT
N 68 (6389) 1 aprel 2016

# Kerri-Əliyev görüşü - Vaşinqtonda dəyişən tarix

## Amerika Azərbaycana tam dəstəyini ifadə etdi; ekspertlər prezidentin ABŞ-a səfərinin ilkin nəticələrini dəyərləndirdi: "Son 13 ildə ilk dəfədir ki..."

**ABŞ prezidenti Barak Obamanın dəvəti ilə Vaşinqtonda keçirilən İV Nüvə Təhlükəsizliyi Sammitinə qatılan Azərbaycan prezident İlham Əliyevin səfərinin ilk günü kifayət qədər məhsuldar olub.**





Azərbaycan prezidenti martın 30-da Amerika Birləşmiş Ştatlarının dövlət katibi Con Kerri ilə görüşüb, hər iki tərəfin mesajları ekspertlər tərəfindən yüksək qiymətləndirilir. APA-nın məlumatına görə, Con Kerri və prezident İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər. "Mən prezident Əliyevi Dövlət Departamentində qarşılamaqdan məmnunam. Bizim ölkələrimiz arasında ortaq maraqlar var. Biz Azərbaycana Əfqanıstandakı sülhməramlı missiyaya verdiyi töhfələrə görə minnətdarıq"-Kerri bildirib. ABŞ-ın dövlət katibi Birləşmiş Ştatların Azərbaycanla güclü və uzunmüddətli əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. O, Azərbaycanda gedən iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi proseslərinin ABŞ-da maraqla izlənildiyini vurğulayıb. Azərbaycanın mürəkkəb regionda yerləşdiyini önə çəkən Kerri prezident Əliyevə "Cənub Qaz Dəhlizi" layihəsində sərgilədiyi liderliyə görə təşəkkür edib. ABŞ rəsmisi bu dəhlizin Avropanın enerji təchizatında önəmli rol oynadığını bildirib.

### Ağ Evdən Bakıya Qarabağ dəstəyi

**Prezidentin Amerika səfəri Qarabağ məsələsində Azərbaycanın mövqeyinin bir daha müdafiə olunması baxımından da faydalı olub. Belə ki, görüşdə Qarabağ məsələsi də müzakirə mövzusu olub.** "Biz Dağlıq Qarabağ dondurulmuş münaqişəsinin həll olunmasını görmək istəyirik - bu, danışıqlar yolu ilə həll olunmalıdır"- Kerri deyib. Kerri Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyini bildirib, sərhəddə və cəbhə xətti boyunca zorakılığın artmasından narahatlığını ifadə edib. ABŞ rəsmisi beynəlxalq hüquq prinsipləri, BMT Xartiyası və Helsinki Yekun Aktı bazasında davamlı sülhə nail olmaq üçün hər iki tərəflə əməkdaşlığa sadiq olduqlarını bir daha təsdiqləyib. ABŞ Konqresinin Dağlıq Qarabağ separatçılarına yardımı dayandırmasının ardınca belə bir mövqenin ifadə olunması Azərbaycan üçün ciddi uğur sayıla bilər.

**Azərbaycanın dövlət başçısının da ABŞ-ın bu mövqeyindən razı qaldığı prezidentin mövqeyindən də aydın görünür.** "Biz ABŞ hökumətinin Azərbaycanla Ermənistan arasında uzun münaqişənin həllində göstərdiyi səylərə görə minnətdarıq. Biz hesab edirik ki, bu konflikt erməni qüvvələrinin ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT qətnamələri əsasında həll edilməlidir"- Azərbaycan prezidenti bildirib.

**Prezident İlham Əliyev çıxışı zamanı Vaşinqtona dəvətə görə prezident Barak Obamaya təşəkkürünü bildirib və ölkələr arasında yaxın və mehriban münasibətlər olduğunu vurğulayıb.** "Bizim aramızdakı iqtisadi əməkdaşlıq inkişaf edir. ABŞ şirkətləri Azərbaycanda $10 milyarddan çox investisiya qoyublar". Daha sonra prezident İlham Əliyev ortaq enerji layihələri və "Cənub Qaz Dəhlizi"nin inşası haqda danışıb. Azərbaycanın 100-ə yaxın sülhməramlı əsgərinin Əfqanıstanda xidmət etdiyini önə çəkən İlham Əliyev Azərbaycanla ABŞ arasında bir sıra sahələrdə əməkdaşlıq olduğunu qeyd edib.

Görünən budur ki, son aylara qədər münasibətlərində gərginlik pik həddə qalxan Bakı və Vaşinqtonun münasibətlərində yeni mərhələ başlayıb. Hər halda, "Azərbaycan prezidenti İlham Əliyevi ABŞ-da salamlamaqdan məmnunluq duyuruq. Bizim hazırda üzərində işlədiyimiz çox sayda ümumi maraqlarımız var" bəyanatı mövcud münasibətləri özündə ehtiva edir. Bir müddət öncə isə ABŞ Konqresinə konqresmen Kristofer Smitin təşəbbüsü ilə Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan layihənin təqdim olunmasının əvəzində, Azərbaycan Milli Məclisinin deputatı Rövşən Rzayev ABŞ-a qarşı sanksiyaları nəzərdə tutan alternativ qərar layihəsi hazırlamışdı. Lakin Azərbaycan prezidentinin ABŞ-a dəvət edilməsi, Azərbaycandakı siyasi məhbusların böyük bir qisminin azadlığa buraxılması, islahatlarla bağlı addımların müşahidə olunması, həmçinin Bakının etibarlı tərəfdaş olması, təhdidlərə baxmayaraq, Qərbin iştirakçısı olduğu nəhəng beynəlxalq layihələrdə yer alması şübhəsiz ki, Ağ Ev administrasiyası tərəfindən dəyərləndirildi. Hər halda, prezident Əliyevin ABŞ konqresmenləri ilə birbaşa görüşü və onların suallarını birbaşa cavablandırması da maraqlı məqamdır. ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Con Kirbinin dedikləri də diqqət çəkir. Kirbi "Kerri demokratiya və insan haqları məsələlərinin müzakirəsi zamanı Azərbaycanın son vaxtlar bu istiqamətdə atdığı müsbət addımları alqışlayıb" deyib. Deməli, ABŞ səfəri öncəsi imzalanan əfv fərmanı öz sözünü deyib.

**Amerika görüşü və münasibətlərin bundan sonrakı mərhələsi barədə ekspertlərin maraqlı şərhləri var.**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, prezident İlham Əliyevin ABŞ-a səfəri mübaliğəsiz tarixi əhəmiyyət daşıyır:** "Tarixilik ondan ibarətdir ki, İlham Əliyev prezident olduğu 13 ildə ilk dəfə ABŞ-a bu qədər məhsuldar səfər həyata keçirir. Əgər əvvəllər İlham Əliyev ancaq BMT tədbirlərində iştirak etmək üçün ABŞ-a səfər edir və görüşlərin məkanı Nyu-York olurdusa, indi Azərbaycan prezidenti Amerikanın paytaxtında ikitərəfli münasibətlərin keçmişi, bu günü və gələcəyini müzakirə edir. Bu hər iki dövlətin maraqlarına xidmət edir".

**Ekspertin sözlərinə görə, əslində İ.Əliyevin ABŞ-dakı görüşləri səfərdən əvvəl nəticə verməyə başladı:** "Səfər ərəfəsində Azərbaycanda onlarla siyasi məhbus azad edildi, digərlərinin isə azad ediləcəyi proqnozlaşdırılır. Məncə, İlham Əliyevin əfv siyasəti konqresmen Kristofer Smitin Azərbaycan hakimiyyəti əleyhinə hazırladığı qanun layihəsinin aktuallığını da azaldıb. Önəmli olan adları müxtəlif beynəlxalq siyahılarda hallanan insanların azad olunmasıdır. Bu siyasətin davamı həm Azərbaycanın sabitliyinə, həm də Azərbaycan-ABŞ münasibətlərinə böyük töhfədir. İlham Əliyevin Vaşinqtona ayaq basdığı gün çox məhsuldar oldu. Azərbaycan prezidenti yalnız 30 mart tarixində ABŞ dövlət katibi Con Kerri, bu ölkənin ticarət naziri Penni Pritzker, Amerika konqresmenlərlə və yəhudi lobbisinin rəhbərləri ilə görüşlər keçirdi. Bu görüşlərin hər biri Azərbaycan və Azərbaycan-ABŞ əməkdaşlığı üçün əhəmiyyətlidir. Əlbəttə ki, ilk növbədə Kerri-Əliyev görüşünün əhəmiyyətindən danışmaq lazımdır. Həm İlham Əliyevin, həm də Con Kerrinin görüş sonrası brifinqdə verdikləri mesajlar çox əhəmiyyətli idi. Mən həmin mesajlarda nə gərəyindən artıq, nə də əskik ifadə görüm. Kerrinin birinci mesajı o oldu ki, ABŞ-ın Azərbaycanla üzərində birgə işlədiyi çox sayda ümumi maraqları var. Daha sonra Kerri Azərbaycanın mürəkkəb regionda yerləşdiyini xatırladaraq "Cənub Qaz Dəhlizi"nin reallaşmasında İlham Əliyevin xüsusi rolunu qeyd etdi. Kerri enerji mövzusundakı fikrini belə yekunlaşdırdı ki, enerji mənbələrinin diversifikasiyası məsələsində Avropanın uzunmüddətli strateji maraqları baxımından Azərbaycan çox vacib rol oynayır".



**"Azərbaycan prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının dövlət katibi Con Kerri ilə görüşü istər regional münaqişələrin həllinə, istərsə də meqalayihələrin həyata keçirilməsinə mühüm töhfə verə, əsasən də Dağlıq Qarabağ münaqişəsinin həllinə təkan da ola bilər". Bu fikirləri isə "Yeni Müsavat"a politoloq Arzu Nağıyev bildirdi. Ekspertin sözlərinə görə, regional iqtisadi layihələrin həyata keçirilməsində əsas məsələ məhz təhlükəsizlik məsələsidir ki, buna mane olan ən böyük problem də məhz Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsidir. ABŞ Konqresinin sanksiya təhdidlərinin bundan sonrakı taleyinə gəldikdə isə A.Nağıyev bu məsələnin arxa plana keçdiyi qənaətindədir:** "Bu, bir mesaj kimi göndərilmişdi, lakin Birləşmiş Ştatlar və Azərbaycan arasındakı münasibətlərdə daima inkişaf olub və düşünürəm ki, bundan sonra da olacaq. Təbii ki, anti-Azərbaycan qüvvələri daim olub və olacaq da . İlk növbədə Ermənistan və onun havadarlarından söhbət gedir. Yeni Azərbaycan istər daxildə, istərsə də xaricdə dini dəyərlərə, tolerantlığa hörmətlə yanaşmaqda bərabər, öz dünyəviliyinə, insan haqlarının qorunması məsələsinə də sadiqdir".

### Sanksiya layihələri arxivə, yoxsa...

**"Görünən budur ki, Azərbaycan-ABŞ münasibətlərindəki soyuq mərhələ başa çatmaq üzrədir və ya artıq başa çatdı. İndi ikitərəfli münasibətlərdə bir istiləşmə başlayır və hər iki tərəfin buna marağı var". Bu fikirlər isə "Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Orucluya məxsusdur. Politoloq görüşü yüksək qiymətləndirdi:** "İlham Əliyev-Con Kerri görüşündən sonrakı açıqlamalarda da bu, aydın görünürdü. Mən deyərdim ki, bunlar siyasi və ya diplomatik dildə də verilmiş açıqlamalar deyildi. Açıq şəkildə deyildi ki, tərəflər müttəfiqlikdə, tərəfdaşlıqda maraqlıdır və bu sahədə təcrübələri də var. Deməli, bundan sonrakı mərhələdə də münasibətlər yüksələn xətt üzrə inkişaf edəcək. Çünki ümumi maraq doğuran müxtəlif əməkdaşlıq formatları mövcuddur: iqtisadi, enerji sahəsində əməkdaşlıq, təhlükəsizlik, nəqliyyat, kommunikasiya və s. Əslində biz bunu proqnozlaşdırmışdıq. Azərbaycan hakimiyyətinin son vaxtlar atdığı addımlar da bunu göstərirdi ki, gərgin mərhələ arxada qalıb və tərəflər daha çox əməkdaşlığa üstünlük verirlər". **Ə.Oruclu hesab edir ki, bundan sonra özündə sanksiya ehtiva edən layihələrin qəbul olunması ehtimalı çox aşağı düşür:** "Bunlar təqdim olunduğu üçün yəqin ki, ən azı komitələrdə müzakirə olunacaq. Burada da iki məqam var: birincisi, müvafiq komitələrdən keçməsi, ikincisi də Konqresin ümumi iclasında müzakirə olunması və münasibət bildirilməsi. Nəzərə alsaq ki, artıq sanksiyalarla bağlı həmin qanun layihələrini gündəmə gətirən bir çox amillər aradan qaldırılıb, digərləri də aradan qaldırılmaq üzrədir, bununla bağlı müəyyən səylər göstərilir, ola bilsin sanksiya qərarlarının da qəbul olunma ehtimalı azalır. Hər halda, görünən budur". Ümumiləşdirsək, ABŞ və Azərbaycan arasında "soyuq müharibə"nin başa çatdığını deyə bilərikmi? Ə.Oruclu: "Əslində bu, "soyuq müharibə" də deyildi. Sadəcə olaraq, əsasən Azərbaycan hakimiyyətinin daxilində ikitərəfli münasibətləri pozmağa çalışan bir qrupun səyləri idi və müəyyən effekt verdi". Amma ekspert hesab edir ki, həmin qrupun uduzduğunu demək mümkündür...

**Politoloq Hikmət Hacızadə isə görüşdən sonra sanksiya təhdidinin qalxacağını güman etmir. Onun fikrincə, ABŞ Azərbaycan rəhbərliyindən antiterror kampaniyasında iştirakının təsdiqini istəyib və müsbət cavab alıb:** "Əslində ABŞ Azərbaycandan istədiklərini ona çoxdan deyib. Bunun səbəbi siyasi məhbusların hamısının buraxılması, alternativ fikir mənsublarının yenidən həbs olunmaması, repressiv siyasətin bitməsi tələbidir". ABŞ səfərinin ardınca ölkədə ciddi islahatlara başlanılıb-başlanılmayacağına gəldikdə, H.Hacızadə bunu deməyin çətin olduğu qənaətindədir.

**❑ E.PAŞASOY**

# Cəmil Həsənlinin Milli Şuradan istefası xəbəri yayıldı

## Qurumdakılar təkzib edir, özü isə məsələyə münasibət bildirmir

**Milli Şuranın sədri Cəmil Həsənlinin Milli Şuradan istefa ərizəsi yazdığı barədə xəbərlər yayılıb. “Bakı Xəbər” qəzetində və digər bir neçə saytda yayılan xəbərdə deyilir ki, Cəmil Həsənli istefa ərizəsini yazaraq Milli Şuradan getdiyini bəyan edib. Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü, AXCP sədri Əli Kərimli isə onu bu fikrindən daşındırmağa çalışır.**

C.Həsənlinin istefa verməsinə səbəb kimi onun xalq yazıçısı Maqsud İbrahimbəyovla vida mərasimində iştirak etməsi və bundan sonra Milli Şurada cərəyan edən neqativ proseslər göstərilir. Qeyd edilir ki, C.Həsənlinin İbrahimbəyovun yas mərasiminə qatılması, başda Əli Kərimli olmaqla, Milli Şurada kəskin etirazlara səbəb olub. Bu etirazlar sosial şəbəkələrdə kəskin hal alıb. Məhz bu səbəbdən də C.Həsənli Milli Şuradan getmək qərarına gəlib.

Əli Kərimli isə ona bildirib ki, narazılıqları onun Milli Şuradan getməsi üçün deyil.

**Milli Şuranın adının çəkilməsini istəməyən üzvü bu xəbərin doğru olduğunu deyib. Həmin şəxs bildirib ki, C.Həsənli faktiki olaraq sədrlikdən gedib, sadəcə, bu məlumat ictimailəşməsin deyə gizlədilir:** “Cəmil Həsənli Milli Şura sədri vəzifəsindən istefa vermək istədiyini bildirib. AXCP sədrinin xahişi ilə o bu qərarı mətbuata açıqlamayacağına söz verib. Milli Şura çox güman ki, dağılaraq yeni formatda fəaliyyətini davam etdirəcək. Hazırda bu istiqamətdə məsləhətləşmələr aparılır”.

**Yayılan xəbərin doğru olub-olmadığını dəqiqləşdirmək üçün Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Oqtay Gülalıyevlə əlaqə saxladıq. O.Gülalıyev bildirdi ki, Cəmil Həsənlinin Milli Şuradan istefa ərizəsi yazdığı barədə yayılan xəbər doğru deyil:** “Heç bir əsası olmayan xəbərdir. Cəmil Həsənlinin Maqsud İbrahimbəyovun yas mərasimində iştirak eləməsinin guya Milli Şuranın rəhbərliyində narazılıqla qarşılandığı haqda deyilənlər də dezinformasiyadır. Heç kim Cəmil müəllimin bu addımına narazılıq etməyib. Martın 30-da axşam Milli Şuranın Koordinasiya Mərkəzinin iclası olub. İclası Milli Şuranın sədri Cəmil Həsənli aparıb. Heç bir narazılıq olmayıb, narazılıq üçün əsas da yoxdur”.



**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov Cəmil Həsənlinin Milli Şura sədrliyindən istefa verməsi xəbərinə münasibət bildirib. YAP icra katibinin müavini hesab edir ki, ümumiyyətlə, heç zaman Milli Şura adında təşkilat olmayıb. Onun sözlərinə görə, artıq Milli Şurada olanlar da görür ki, təşkilatın adı kimi fəaliyyəti də sıfır səviyyəsindədir:** “Ümumiyyətlə, bu, Cəmil Həsənlinin ilk istefası deyil. Hətta o, vaxtilə Azərbaycan Xalq Cəbhəsi Partiyasından da Əli Kərimliyə görə istefa verdi. O bunu açıq şəkildə elan etmişdi. Artıq orada olan insanlar da başa düşürlər ki, qurumda heç bir perspektiv yoxdur və oradan uzaqlaşırlar. Onlar bilirlər ki, Milli Şuraya cəlb olunarkən müxtəlif şərtlərlə və bəhanələrlə aldanıblar. Hətta onlardan bir hissəsi özlərinə aid olan vəsaiti götürüb aradan çıxdılar və bununla da öz işlərini tamamlanmış hesab etdilər. Milli Şura xaricdən ixrac olunmuş bir layihə idi. O baxımdan da istər seçkilərdə, istərsə də seçkilərdən sonrakı dövrdə Azərbaycan ictimai-siyasi həyatında heç bir rola malik olmayan Milli Şura artıq ölü bir təşkilatdır. Beləcə, Cəmil Həsənlinin şuradan istefa verib-verməməsinin də heç bir əhəmiyyəti yoxdur. Guya Cəmil Həsənli orada hansı fəaliyyəti göstərdi ki, ondan sonra da nəsə etsin”.

**Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyev isə bildirib ki, Cəmil Həsənlinin istefası və Milli Şurada narazılıqlar olduğu haqda xəbərlər doğru deyil:** “Cəmil Həsənlinin Rüstəm İbrahimbəyova və ya onun qardaşının yasında iştiraka görə təqib edildiyi üçün Milli Şuradan istefa verməsi həqiqəti əks etdirmir. Martın 30-da Milli Şuranın iclası keçirilib, Cəmil Həsənli də sədr kimi orada iştirak edib”.

İstefası xəbərinə Cəmil Həsənlinin özünün rəsmi təkzib verməməsi isə hələ də şübhələnməyə əsas yeri qoyur.

❑ Etibar SEYİDAĞA

# Əkrəm Əylisliyə qarşı cinayət işi qaldırıldı

## “Deyirlər ki, növbə rəisini vurmuşam”

**Martın 30-da Heydər Əliyev adına Bakı Beynəlxalq Hava Limanında saxlanılan və axşam saatlarında sərbəst buraxılan yazıçı Əkrəm Əylisli üzləşdiyi olayın detallarını açıqlayıb.**



Ə. Əylisli APA-ya bildirib ki, hava limanında saxlanılarkən münaqişə yaratmayıb: “Ömrümün ən azı 60 ilini yazıçı həyatı yaşamışam. Bundan sonrakı həyatımın kiçicik parçasını da yazıçı kimi yaşamaq istəyirəm. Aeroportda mənimlə bağlı baş verən hadisənin nəyə və kimə lazım olduğunu anlamaqda çətinlik çəkirəm. Aeroportun polis idarəsində məntiqsiz və mənasız izahat yazıldığının şahidi oldum. Amma bu üsullar artıq köhnəlib. Bu izahat, söz yox ki, məni yolumdan saxlamaq istəyənlərin özlərinə haqq qazandırmaq məqsədi daşıyır”.

Ə. Əylisli hər kəsi bir-birinə inanmağa və qorumağa çağırıb: “Sivil dövlət olduğumuza dünyanı inandırmaq üçün bizim bundan savayı yolumuz yoxdur. Sovet dövründə və ondan sonrakı dövrdə neçə-neçə beynəlxalq tədbirdə Azərbaycanı ləyaqətlə təmsil etmişəm. İndi bu missiyadan nəyə görə məhrum edilməliyəm? Buna heç bir səbəb tapa bilmirəm. Əgər bu olanlar ”Daş yuxular"la bağlıdırsa, o əsər artıq siyasi kontekstdən çıxıb, ədəbi taleyini yaşayır".

**Ə. Əylisli əlavə edib ki, rəsmi məlumatda göstərilənlər təyyarə yola düşdükdən sonra olub:** “Əgər mən hər hansı nalayiq hərəkət etmiş olsaydım, kameralarda əks olunmalı idi. Ona görə də bizi ayrı otağa apardılar, guya mən kamera olmayan yerdə münaqişə yaratmışam. Mənə izahatı göstərdilər. Aeroportun növbə rəisi izahatında göstərib ki, mən onu vurmuşam, yumruğun yeri qaralıb və bununla bağlı ekspertizanın rəyi də var”.

Yazıçı əlavə edib ki, saxlanılarkən xarici pasportu alınıb və geri qaytarılmayıb. Qeyd edək ki, yazıçı Ə. Əylisli oğlu İlyas Əylisli ilə İtaliyaya gedərkən Heydər Əliyev Beynəlxalq Hava Limanında saxlanılıb.

Onu da qeyd edək ki, Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə saytın sorğusuna cavab olaraq bildirib ki, Əkrəm Əylisli buraxılış məntəqəsindən keçərkən əməkdaşlarla münaqişə yaratdığı üçün saxlanılıb.

Yazıçı Əkrəm Əylisliyə qarşı Azərbaycan Cinayət Məcəlləsinin 221.1-ci (xuliqanlıq) maddəsi ilə cinayət işi azılıb. Bu barədə “Turan” agentliyinə onun oğlu Nəcəf bildirib. Əylisl sərhəd xidmətinin əməkdaşına qarşı zorakılıqda ittiham olunur. Bununla belə, yazıçının pasportunu qaytarıblar.

CM-in 221.1-ci maddəsi uzrə 160 saatdan 200 saata qədər ictimai iş və ya 1 ilə qədər islah işləri, yaxud 1 ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

# Gürcü deputatlar Avronestə Azərbaycan əleyhinə çıxıb

## Ermənilər Avronest Parlament Assambleyasında yenə düşmən mövqe sərgilədi; Milli Məclisin ötən il verdiyi qərar müzakirə mövzusuna çevrilir

**Avropa Parlamentinin Azərbaycan hakimiyyətini narazı salan qətnaməsinə cavab olaraq Milli Məclisin 2015-ci ilin 14 sentyabrında Azərbaycanın Avronest Parlament Assambleyasından çıxması barədə qəbul etdiyi qərardan ermənilər öz maraqları lehinə yararlanmağa başlayıblar.**

Belə ki, martın son həftəsində Avronest PA-nın sessiyasında Avropa İttifaqı və “Şərqi Tərəfdaşlığı” ölkələrinin xarici siyasət və mümkün təhlükələr üzrə mövqeyi barədə məruzə layihəsi dinlənilib və bu zaman Azərbaycan nümayəndə heyətinin yoxluğu İrəvanın xeyrinə olub. Erməni deputat, Arvonest PA-da Ermənistan nümayəndə heyətinin rəhbəri Artak Zakaryan Aİ və “Şərq Tərəfdaşlığı” ölkələrinin xarici siyasət və mümkün təhlükələr üzrə mövqeyi barədə məruzə layihəsindən ermənilərə sərf etməyən, lakin Azərbaycanın xeyrinə olan bəzi ifadələri çıxarmağa müvəffəq olub.

Bir çox siyasi təhlilçilər bildiriblər ki, bu hadisə Azərbaycan Milli Məclisinin Avronest PA-dan çıxmaq barədə qərarının yanlış, zərərli olduğunu bir daha ortaya çıxarıb. Ona görə də Milli Məclis ötən ilin 14 sentyabrında qəbul etdiyi qərarı ləğv etməli və Avronest PA-da fəaliyyətimiz bərpa edilməlidir.

**Bəs Milli Məclisin deputatları bu barədə nə düşünürlər?**




**YAP-ın şöbə müdiri, deputat Aydın Mirzəzadə “Yeni Müsavat”a bildirdi ki, Avronest PA-nın bu şəkildə sənəd qəbul etməsi Milli Məclisin bu qurumdan çıxmaqla bağlı verdiyi qərarın haqlı olduğunu bir daha ortaya çıxardı:** “Avronest 6 ölkənin birgə Parlament Assambleyası idi. Ancaq o, həmin ölkələrlə Avropa Birliyi arasında əməkdaşlığı genişləndirmək əvəzinə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə xələl gətirən addımlar atırdı. Avropa Birliyində isə vaxtaşırı bir qrup deputatın səyi nəticəsində Avropa Parlamentindəki boşluqdan istifadə edib Azərbaycan əleyhinə bir sıra qətnamələr qəbul edilmişdi. Çox prinsipial şəkildə Azərbaycanın suverenliyinə hörmət edilmədikdə o cür addımlara etirazını ortaya qoyub. Avronestin qəbul etdiyi həmin sənədin isə heç bir hüquqi əsası yoxdur. Azərbaycanın ərazi bütövlüyü məsələsi bu gün ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən qəbul edilir. Ermənistanın Avronestdə məlum taktiki məsələdə xırda bir uğuru onun işğalçılıq siyasətinə hər hansı bir uğur gətirə bilməz. Hesab edirik ki, Avronest bu gün Azərbaycanın maraqları qorunan yer deyil, Azərbaycanla əməkdaşlıqda maraqlı olan bir struktur deyil. O baxımdan keçən il Milli Məclisin qəbul etdiyi qərarı düzgün hesab edirəm”.

**Milli Məclisin deputatı Vahid Əhmədov da “Yeni Müsavat”a açıqlamasında dedi ki, Milli Məclisin Avronest PA-dan çıxmaqla bağlı qərarına yenidən baxmağa ehtiyac görmür:** “Məni Avronestin hanssa sənəd qəbul etməsindən çox Azərbaycanın strateji müttəfiqi sayılan Gürcüstan deputatlarının ermənilərin istəyini yerinə yetirməsi narahat edir. Narahatedici məqam odur ki, gürcü deputatlar erməni deputatların səsinə səs veriblər. İndi də özlərinə haqq qazandırmağa çalışırlar. Artıq bir neçə belə hadisələr olub ki, Gürcüstanın nümayəndə heyəti bu cür səhvlərə yol verir. Strateji müttəfiq bu cür davranmamalıdır. Avronestdə qəbul edilən həmin sənəddə bir neçə ştrix keçib. Ancaq elə bir əhəmiyyət kəsb eləmir. Çünki bütün aparıcı beynəlxalq təşkilatlar, dövlətlər Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyır. Odur ki, indi Milli Məclisin Avronest PA-dan çıxmaqla bağlı qərarına yenidən baxmaq və oraya yenidən nümayəndə heyəti göndərməyə ehtiyac yoxdur”.

**BQP sədri, deputat Fazil Mustafa isə “Yeni Müsavat”a bildirdi ki, Avronestlə bağlı qərarı doğru hesab etmir:** “Təbii ki, Avronestdən gözləntimiz çox azdır, Avropa İttifaqında bizə qarşı müəyyən ikili standartlar var. Bunları anladıq, amma o yerdə ki, sən olmursan, o yerdə artıq başqa ölkələrin öz maraqlarını həyata keçirməsinə mane ola bilmirsən və sənə qarşı olan addımları da əngəlləyə bilmirsən. Halbuki Azərbaycan nümayəndə heyəti orada olanda biz bunun qarşısını ala bilirik. Bunlar hamısı düşündürücü məsələlərdir və bu məsələlərdə xeyli geridəyik. Ona görə də Milli Məclisin keçən il Avronestlə bağlı verdiyi qərarı üzərində bir müzakirə aparılmağına dəyər. Biz hər yerdə olmağa çalışmalıyıq”.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 68 (6389) 1 aprel 2016



# Aaaaaaa

**Samir SARI**

**Bir də görürəm, iş yoldaşlarım Youtube saytında bir videoya baxıb gülürlər. Videodan da beyzən "aaaaaaa" və qovğa edən adamların səsi gəlir.**

Yaxınlaşıb baxıram ki, bay, hadisələr Vaşinqtonda cərəyan edir, "aaaaaaa" deyə qışqıranlar Türkiyə prezidenti Ərdoğanın mühafizəçiləridir və onlar bu minvalla etiraz aksiyası keçirərək, "Ərdoğan, terrorist" deyə qışqıranların səsini batırmaq istəyirlər. Məqsəd də budur ki, Ərdoğan ona "terrorist" deyənlərin səsini, sözünü eşidib "nervilənməsin".

Allah tərəfi, mühafizəçilər öz işlərinin öhdəsindən yaxşı gəlirdi, həm hoteldən çıxmaq üzrə olan prezidentə yaxın getmək istəyənlərin qarşısını yaxşı kəsmişdilər, həm də qeyri-mütəşəkkil qaydada bağıran aksiyaçıların səsini öz "aaaaa"ları ilə batıra bilirdilər. Cangüdənlərin içində biri vardı, onun səsi daha gur çıxırdı. Adam gedib opera sənətçisi olacağı yerdə gəlib mühafizəçi olub.

Bizim uşaqlar isə videoya baxıb gülürdülər. Aksiya iştirakçılarının səsini unikal bir şəkildə batırmaq istəyənlərin hərəkəti onlara gülməli gəlirdi.

Əslində olmayaydı Amerika, olaydı Türkiyə, onda bu "aaaaaaa"lara ehtiyac olmazdı. Düzdür, həmin səs ("aaaaaa") yenə gələrdi, amma onu dəyənəklə eşşək kimi döyülən, bibər qazıyla boğulan aksiya iştirakçıları çıxarardılar.

Nə etmək olar ki, həmin vaxt Ərdoğan qərib ölkədəydi və o ölkənin qanunlarına görə, nəyəsə etiraz bildirən adamlar hər ləhzədə sillə-təpiyin altına salmaq, danaboyun edib aparmaq, it sürütməsi eləyib hadisə yerindən uzaqlaşdırmaq, dartıb əyinlərindən şalvarlarını çıxarmaq, burunlarına bibər qazı sıxmaq, təzyiqli suyla çimdirmək, təpələrinə rezin güllə vurmaq mümkün deyil.

Hərçənd ABŞ polisi, elə də siz deyən, ağıllı-kamallı, təmkinli-hövsələli sayılmır, ildə nə qədər adamı *(təxminən 1000-ə yaxın)* əlini cibindən çıxardığı, yaxud da əlini cibinə apardığı yerdə güllələyirlər, sonra aydın olur ki, yazıq qurban əlini cibinə elə-belə aparırmış, silahı-filan yox imiş. Ancaq onlar bunu şübhəli şəxslərə qarşı edirlər, aksiya keçirənlərə dəymirlər. İntəhası, onlar da gərək polisə baxa-baxa əllərini ciblərinə aparmayalar.

Təəssüf ki, Ərdoğanın mühafizəçiləri ilə boğuşan aksiyaçıların kimliyi videokadrlardan bilinmirdi. Ritorikalarına, şüarlarına nəzər yetirsən, deyərdin ki, PKK tərəfdarlarıdır. Amma bığsız, saqqalsız suratlarına baxınca, yəhudilərə daha çox oxşayırdılar. Polisə direşmələrinə, pis-pis, qəzəbli-qəzəbli söyüş söymələrinə qalsa, deyərdin ki, tipik ermənilərdir.

Bir ölkənin prezidentinə, baş nazirinə qarşı xaricdə bu cür etiraz aksiyası keçirmək cəhdi yeni şey deyil. Çoxlu presedentləri var. O vədə, 3 il əvvəl ukraynalı femen qızlar da Almaniyada səfərdə olan Rusiya prezidenti Putinin qabağında üst-başlarını açmışdılar, türkün sözü, gümbür-gümbür aksiya keçiriblər, biabırçılıq olub. Putin və əshabələri qurşağa qədər çılpaq olan, bellərində Putinə ünvanlanmış söyüş yazılan, dillərində prezidentə qarşı latayır səsləndirən qızlara fikir verməsələr də, mühafizəçilər aksiya keçirənlərə müdaxilə ediblər. Ancaq "aaaaa" deyə qışqıraraq çığırışan qızların səsini batırmaq rus cangüdənlərin ağlına gəlməyib və Putin həmin o ağır sözləri eşitməli olub.

Kremlin sözçüsü Dimitri Peskov isə bu hadisəni təəssüflə qarşılayaraq belə demişdi: "Təəssüf ki, belə hadisələr dünyanın hər yerində olur. Artıq kiminsə onları cəzalandırması lazımdır".

Amma necə edəsən? Başqa ölkədə bir başqa ölkənin vətəndaşını necə tutdurasan. Həm də nəyə görə? Şüar qışqırdığına görə.

Amerikada, Avropada belə şeylərə görə adam tutmurlar. Ümumiyyətlə, çox şeyə görə tutmurlar. Sonra da xətası çıxır. Tutulmayanlar gedib metronu-filanı partladırlar.

# Himnimizi təhqir edən deputata sərt reaksiya

## Şirməmməd Hüseynov: "O, gündəmi qarışdırmaq üçün belə bir açıqlama verir"

**"Nə musiqisi himnimizə yaraşır, nə də sözləri". Bu fikirləri unikal.org-a Sosial Demokrat Partiyasının sədri, deputat Araz Əlizadə bildirib. O qeyd edib ki, dahi Üzeyir Hacıbəyov himnimizi mərsiyə kimi yazıb:**

şəxslər himnin sözlərini dəyişmək istəyirdilər. Biz onlara cavab verdik, səslərini kəsdilər. Ona görə də o sözlər, o musiqi tələm-tələsik yazılmayıb. Əvvəlcədən həm sözlərə, həm də musiqiyə müsabiqə elan ediblər. Bu işə də Üzeyir bəy nəzarət edib. Araz Əlizadə ilə Üzeyir bə-

**şarkən qeyd edib ki, bundan öncə də himnimizə qarşı təftiş və hücumlar olub:** "Himnimiz haqqında bu cür fikirlərin söylənilməsi yeni hadisə deyil. Vaxtilə müxtəlif alimlərimiz, şairlərimiz tərəfindən də bu cür fikirlər səslənib. Hətta himndə bəzi sözlərin anlaşılmaz olduğunu deyənlər də vardı. Məsələn,

bəyli, Əhməd Cavad deyil, xalqdır. Uzun illər boyu sovetlər birliyində insanlar tərəfindən qəlblərdə yaşadılıb. Müstəqilliyimizi bərpa edərkən meydan hərəkatı zamanı oxunub və xalq tərəfindən qəbul edilib.

Bu gün himnimizi təftiş etmək, əleyhinə sözlər demək







düzgün deyil. Yaxşı olar ki, parlamentdə oturan adamlar seçicilərinin problemlərini qaldırıb gündəmə gətirsinlər. Hər kəs öz peşəsi ilə məşğul olsa yaxşıdır. Bu himnin nə mənasının, nə də musiqisinin belə adamlara aidiyyəti yoxdur!"

**Xalq artisti, tanınmış bəstəkar Faiq Sücəddinov himnimiz barəsində səslənən fikirləri hiddətlə qarşılayıb:** "Himnin bu yaxınlarda tonallığını dəyişdirdilər. Tonallıq bir qədər yuxarı idi. Bu, Üzeyir bəyin himnidir, necə ona mərsiyə demək olar?! Birinci dəfədir ki, belə bir şey eşidirəm.

### Fərəc Quliyev: "Dövlətin atributuna münasibət, millətə və dövlətə olan münasibətdir"

"Azərbaycan Demokratik Respublikasının banileri tələm-tələsikdə musiqiyə sözlər uyğunlaşdırdılar. Dünyada yeganə ölkəyik ki, bizim himnimiz minordur. Bütün dünyada himnlər majordadır. Yəni majorda olan himnlər ruh yüksəkliyi gətirir. Bizim himnə qulaq asanda adam istəyir əlinə dəsmal alıb ağlasın"

Deputatın Azərbaycanın Dövlət himni barəsində səsləndirdiyi fikirlər ictimaiyyətdə birmənalı qarşılanmayıb. 1919-cu ildə dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyli və Əhməd Cavad

yi bir çəkiyə qoymaq olar? O, Üzeyir bəydən çox bilir? Necə olur, Rəsulzadə, parlament, camaat, Azərbaycan adlı dövləti yaradanlar bu işi bəyəndi, Araz Əlizadə bəyənmədi? O, gündəmi qarışdırmaq üçün belə bir açıqlama verir. Ona görə də belə deputatın dedikləri ciddiyə alınmamalıdır".

**Deputat Fərəc Quliyev isə "Yeni Müsavat"a açıqlamasında həmkarının himnimizə qarşı olan münasibətini anormal adlandırıb:** "Bizim himnimiz hətta pis səslənsəydi belə dövlətimizin rəmzi, simvoludur. Ona hör-

"Hüququndan keçən əsgər, hərə bir qəhrəman oldu" cümləsi barədə tanınmış şairlərdən biri belə bir fikir söyləmişdi ki, guya o söz anlaşılmır, nə demək olduğu bilinmir. Sonra biz ona cavab verdik, izah etdik ki, "Hüququndan keçən əsgər", yəni "öz yaşamaq hüququndan, canından keçən əsgər" mənasındadır. O himn 1919-cu ildə ifa edilib və müəllifləri böyük Üzeyir bəy Ha-

### Sabir Rüstəmxanlı: "Milli Məclisin özü bunun cavabını verməlidir"

### Nəsiman Yaqublu: "Bu himnin nə mənasının, nə də musiqisinin belə adamlara aidiyyəti yoxdur"

tərəfindən tərtib olunmuş himnin mərsiyə adlandırılması mətbuatda, sosial şəbəkələrdə ciddi etiraz doğurub.

**Professor, cümhuriyyət dövrünün araşdırmaçısı Şirməmməd Hüseynov "Azadlıq" qəzetinə açıqlamasında deputatına açıqlamasını kəskin tənqid edib. O qeyd edib ki, deputat gündəmi qarışdırmaq üçün belə bir açıqlama verib:** "Mən Araz Əlizadə kimi tarixçi tanımıram. O, kimdənsə eşitdiklərini söyləyir. Himnimiz 25 ildir çalınırsa, BMT-dən tutmuş bütün dövlətlər onu tanıyırsa, heç kim ona irad tuta bilməz. Araz Əlizadə kimdir ki, bütün ölkələrin, dövlətlərin, parlamentlərin, alimlərin qəbul etdiyi himni qınasın?! O vaxt belə bir söhbət yayıldı ki, himndəki "hüququndan keçən əsgər, hərə bir qəhrəman oldu" misrası düzgün deyil. Mən sübut etdim ki, insanın ən ümdə hüququ onun yaşamaq, var olmaq hüququdur. Yəni yaşamaq hüququndan keçən əsgər qəhrəman kimi təqdim edilməlidir. Bir vaxtlar ortaya atılan bir sıra

mətlə, saygı ilə yanaşmaq lazımdır. İstənilən dövlətin atributuna münasibət, millətə və dövlətə olan münasibətdir. Təbii ki, himnimizə olan o cür münasibəti anormal hesab edirəm. Üstəlik də deputat, məmur belə məsələlərdə olduqca ehtiyatlı davranmalıdır".

**Xalq şairi, VHP sədri Sabir Rüstəmxanlı isə bildirdi ki, himnimizə olan bu cür münasibət əslində dövlətə qarşı hörmətsizlikdir:** "Bu himn artıq 25 ildir ki, Azərbaycanda səslənir və Milli Məclis tərəfindən qəbul olunub. Əgər bu gün Milli Məclisin deputatı himnimizə qarşı çıxırsa, oturduğu kürsüyə, tərkibində olduğu parlamentə qarşı çıxır. Milli Məclisin özü bunun cavabını verməlidir. Bu himn artıq qəbul olunub, dövlətin atributudur. Bunu belə müzakirə mövzusuna çevirmək, o cür dilə-dişə salmaq əslində dövlətə hörmətsizlik və onu şübhə altına almaqdır".

**Rəsulzadə irsinin araşdırıcısı, tarixçi-alim Nəsiman Yaqublu da "Yeni Müsavat"a danı-**

cıbəyli və Əhməd Cavaddır. Arada dedilər ki, guya sözləri Əhməd Cavadın deyil. Hətta bir qrup şairlər istəyirdi ki, himn ləğv olunsun, özləri himn müəllifi olsunlar. Onlara cavab verdim ki, bu cür işlərə, oyunlara getməklə himnimizi tarixdən silmək mümkün deyil. Bəs bu himnin yerinə hansı himni məsləhət verirlər? O hansı musiqi olacaq ki, Üzeyir bəyin musiqisindən daha yüksəkdə dayanacaq? İkinci bir tərəfdən, bu himn insanların yaddaşına hopub.

Vaxtilə Türkiyənin "İstiqlal marşı"nı yazan Məhməd Akif Ərsoy demişdi ki, bu marş mənim özüm üçün deyil, bunu Türkiyə üçün yazmışam. Və 1928-ci ilədək, yəni dünyadan köçdüyü günədək heç bir kitabına "İstiqlal marşı"nı salmadı. Çünki bildirmişdi ki, onun müəllifi xalqdır. İndi də bizim himnin müəllifi artıq Üzeyir bəy Hacı-

Bunu kim deyir axı?! Musiqişünaslar, Bəstəkarlar İttifaqı, Mədəniyyət Nazirliyi var. Necə demək olar ki, himnimiz mərsiyədir?! Yaxşı deyil axı. Mərsiyə başqa şeydir. *(Himndən bir parça oxuyur).* Bu, mərsiyədir?! Allah rəhmət eləsin, Üzeyir bəyə!"

Xatırladaq ki, 1919-cu ildə dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyli və Əhməd Cavad tərəfindən "Azərbaycan marşı" tərtib olunub. 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul edib. Qanuna əsasən həmin marş Azərbaycanın Dövlət himni kimi təsdiq edilib. Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 2 mart tarixli qərarı ilə Azərbaycan Respublikasının Dövlət himni haqqında əsasnamə təsdiq edilib.

Onu da vurğulayaq ki, himn Azərbaycan dövlətinin 3 əsas rəmzindən biridir.

Araz Əlizadə isə onu tənqid edənləri təhqir edib və hədələyib.

❑ **Xalidə GƏRAY**

### Faiq Sücəddinov: "Necə demək olar ki, himnimiz mərsiyədir?!"

YENİ MÜSAVAT
N 68 (6389) 1 aprel 2016

# "Azərbaycan özünə "böyük qardaş" axtarmır"

## Siyavuş Novruzov: "Yəqin ki, onların bir hissəsi də Respublika Günü ilə əlaqədar olaraq azadlığa buraxılacaq"

**YAP-ın icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov "Yeni Müsavat"a geniş müsahibə verib. Bir sıra aktual məsələlərdən bəhs edən müsahibəni təqdim edirik:**

*- Siyavuş bəy, "Avronest"in 21-23 mart sessiyasında erməni deputat qrupu Avropa İttifaqı və "Şərq Tərəfdaşlığı" ölkələrinin xarici siyasət və təhlükələr üzrə hazırlanmış məruzəsindən "işğal edilmiş ərazilər" ifadəsini çıxarmağa nail olub. Azərbaycan "Avronest"dən çıxanda bu kimi zərbələri proqnozlaşdırırdımı?*

- Əslində "Avronest" ondan ötrü yaranmışdı ki, Avropaya doğru inteqrasiya məsələləri daha da sürətləndirilsin, Avropa İttifaqı və Avropa Parlamenti ilə əməkdaşlıq daha da genişləndirilsin. Lakin bundan əvvəlki illərdə Avropa Parlamenti, habelə erməni lobbisinin təhriki, ermənipərəst qüvvələrin tövsiyəsi ilə müxtəlif QHT-lər, konqresmen və senatorlar tərəfindən Azərbaycana qarşı ədalətsiz mövqe sərgilənməyə başladı. Avropa Oyunlarına qanunsuz müdaxilə, Azərbaycandakı seçkilərə müşahidəçilərin göndərilməməsi üçün təsirlər, ardıcıl olaraq Azərbaycan əleyhinə qeyri-obyektiv qətnamələrin qəbul olunması onu göstərdi ki, biz əməkdaşlıq etmək istəyirik. Lakin biz nə qədər əməkdaşlığa çalışırıqsa, onlar bizim əleyhimizə şəxsi maraqlarını əsas götürüb fəaliyyət göstərirlər. Burada da bir neçə məsələ əsas rol oynayır: birincisi, erməni lobbisinin təsiri; ikincisi, Azərbaycanın müstəqil siyasət aparması; üçüncüsü, Azərbaycanın heç bir bloka qoşulmaması. Burada dördüncü amil də var. Belə ki, ayrı-ayrı firmalara himayədarlıq edən Avropa Parlamenti üzvlərinin Azərbaycanın sərvətlərindən güzəştli şəkildə istifadə etmək, yaxud biznes şəbəkələrini genişləndirmək istəyi var. Bu məsələlərlə bağlı onlar da bu və ya digər şəkildə cəhdlər göstəriblər və Azərbaycanın maraqlarına qarşı çıxıblar. Azərbaycan artıq elə bir seçim vəziyyətinə gəlib çıxıb ki, əgər əməkdaşlıq yoxdursa, orda iştirakın da heç bir mənası qalmayıb.

*- Ancaq fakt budur ki, Azərbaycan "Avronest" tribunasını boş qoydu və ermənilər bundan istifadə etdilər. Bəlkə qurumdan imtina qərarı doğru deyildi. Məsələn, azərbaycanlı deputatlar hətta İrəvanda Ermənistanın işğalçı olduğunu demək imkanı qazanmışdılar. Amma indi işğal faktoru sənədlərdən də çıxarılır...*

- Azərbaycan əgər orda iştirak etmirsə, orda ermənilərin də iştirakının heç bir əhəmiyyəti qalmır. Çünki burada tərəflərarası münasibətlərdən də söhbət gedirdi. Azərbaycan tərəfi bu məsələ ilə bağlı öz mövqeyini bildirib. Hərçənd ki, "Avronest", Avropanın digər strukturları Azərbaycanla əməkdaşlıq etmək üçün dəfələrlə nümayəndələr göndərirlər, müraciətlər edirlər. Lakin hələlik son qərar yoxdur. Biz öz mövqeyimizi qəti şəkildə ortaya qoyacağıq ki, bu cür yanaşma tərzi olursa, o strukturlarda iştirak etməyin əhəmiyyəti yoxdur. Dünya genişdir, dünya təkcə Avropadan ibarət deyil, onun Şərqi də var, digər hissəsi də. Burada kimsə özünü yuxarı təşkilat kimi aparıb, verdiyi qərarları şərtsiz "ləbbeyk" deyilməsini və yerinə yetirilməsini istəyirsə, bizim o təşkilatlarla əməkdaşlığımız ola bilməz.

*- Son zamanlar Qərbə yönəlik siyasətdə yumşalma var. Rəsmi Bakı balans siyasətinə üstünlük verdiyini bəyan etsə də, təhdidlərə rəğmən Qərblə birgə layihələrdə iştiraka üstünlük verir. Bu barədə hakimiyyətdə yekdil mövqe varmı?*

- Ümumilikdə götürəndə Azərbaycan bütün ölkələrlə bərabərhüquqlu münasibətlərin qurulması ilə əlaqədar həmişə addımlar atıb və bəyan edib ki, Azərbaycan özünə "böyük qardaş" axtarmır, ona görə də heç bir dövlət, beynəlxalq təşkilat bu rolu oynamağa çalışmasın. Azərbaycan səmimi, bərabərhüquqlu şəkildə öz millətinin və xalqının mənafelərini müdafiə etməklə, o maraqlar çərçivəsində istənilən ölkə ilə əməkdaşlıq edə bilər. Ən çətin anlarda Azərbaycan İranla münasibətlərini qorudu. Hansı ki, bütün Avropa ölkələri İrana qarşı embarqo tətbiq etmişdi, o cümlədən ABŞ. Hətta vaxtilə Azərbaycanda NATO-nun bazalarını yerləşdirmək istəyirdilər ki, İrana qarşı hansısa müdaxilə olsun. Belə həssas məqamda Azərbaycan yenə öz mövqeyini qoruyub saxladı. Azərbaycan prezidenti o zaman bəyan etdi ki, Azərbaycan ərazisindən İrana heç vaxt müdaxilə olmayacaq. O cümlədən Rusiya ilə bağlı prosesləri xatırladaq. Avropa Rusiyaya embarqo tətbiq etdikdə, Azərbaycan bu məsələlərə qoşulmadı, Moskva ilə münasibətlərini qoruyub saxladı. Həmçinin Azərbaycan Amerika ilə münasibətlərə də önəm verib. Antiterror əməliyyatlı başlayan kimi Azərbaycan bu prosesə qoşuldu. Bizim əsgərlərimiz həm Kosova, həm də İraqdakı antiterror əməliyyatlarında iştirak etdi, bu gün də Əfqanıstandakı proseslərdə əsgərlərimiz aktiv şəkildə iştirak edir.



### YAP-dan Araz Əlizadəyə təpki: "Himnə toxunmaq olmaz!"

*- Sözünüzdən belə çıxır ki, Ermənistan xaric, rəsmi Bakının heç bir ölkə ilə problemi yoxdur...*

- Bizim heç bir ölkə ilə ciddi problemimiz yoxdur. Sadəcə, Avropa Parlamentində siyasi bloklar var, o qruplar tərəfindən Azərbaycana qarşı yuxarıda dediyim maraqlar çərçivəsində hansısa addımlar atılır.

*- Adətən belə fikirlər səslənir ki, Azərbaycana qarşı təhdid, təzyiq proseslərində erməni lobbisi və onun dəstəkçiləri rol alır. Amma sonuncu əfv fərmanından, həmçinin bir sıra tanınmış məhbusların barəsində həbs qərarının dəyişdirilməsindən sonra gördük ki, rəsmi Bakının bu addımları alqışlandı, hər hansı neqativ münasibət olmadı. Bəlkə bu addımlar daha tez atılsaydı, münasibətlər gərginlik fazasına daxil olmazdı. Razılaşırsınızmı?*

- Yox, əslində bəzi təşkilatlar, o cümlədən Azərbaycanın daxilində olan siyasi partiyalar və QHT-lər bu cür addımların atılmasının əleyhinədirlər. Çünki bunlar bundan bayraq kimi istifadə edirlər. Fikir verin, bəzi təşkilatlardan, o cümlədən ATƏT-dən əfvə münasibət bildirildi. Avropa Parlamentindən və bir sıra digər qurumlardan isə bildirildi ki, həbsdə olanların hamısı azadlığa buraxılmalı idi. Özü də əfv sərəncamları ərəfəsində bunlar qəsdən belə bəyanatlar verirlər ki, Azərbaycan bu bəyanatları qəbul etməsin və onun nəticəsi olaraq bu insanlar azadlığa çıxmasın.

*- Əfvdən əvvəlki söhbətimizdə demişdiniz ki, yaxşı olar həmin təşkilatlar bir ay müddətində sussunlar. Susdularmı?*

- Bəli, mən belə fikir demişdim. Amma gördünüz ki, həm Əli Kərimli, onun dəstəsi, Milli Şura adlandırılan dərnək, həm "Human Rights Watch" təşkilatı, həm də "Freedom House" təşkilatı dərhal bəyanatlar verməyə başladılar ki, bütün məhbuslar azad olunmalıdır. Faktiki olaraq onlar məhbusların azad olunmasını istəmir. Çünki onlar azadlığa çıxdıqda bu təşkilatların və adamların hər hansı təsir mexanizmi itir.

*- "Yeni Müsavat"ın əfvlə bağlı suallarına cavabınızda bir qayda olaraq "Allah qapılarını açsın" demisiniz. Ancaq belə fikirlər də var ki, Siyavuş Novruzov həmişə siyasi məhbuslara qarşı sərt mövqedə olub və bu mənada onların azadlığa buraxılması sizin hakim düşərgədəki rolunuzu azaldır. Bu kimi yanaşmalarla bağlı nə deyə bilərsiniz?*

- Qəti şəkildə bu, belə deyil. Mən həmişə demişəm ki, Allah o insanların qapısını açsın. Söhbət tək onlardan getmir. Orada qadını da, yaşlısı da, qocası da, yanında uşağı olan da var. Bütün kateqoriyalardan olan insanlar var ki, vaxtilə cinayət törədib və çoxu da törətdiyi əməllərdən peşmandır. Mən həmişə bunun tərəfdarıyam ki, kimsə əməlindən peşmandırsa, azadlığa çıxması həbsdə qalmasından daha yaxşıdır.

*- Siyavuş bəy, səmimi deyin, əfvə düşən siyasilərdən kiminsə həbsdə qalmasını istərdinizmi?*

- Qəti şəkildə! Orada gənclər var ki, bu və ya digər partiyaların rəhbərlərinin öyrətməsi, özləri kənarda durduğu halda, onları qabağa verməsi nəticəsinə həbs olunmuşdu. Bu gənclər 20-25-30 yaşında məsuliyyətə cəlb olunub. Mən onların hamısının azadlığa çıxmasının tərəfdarıyam. Amma bununla bağlı da prosedur qaydalar var, daxil olan müraciətlərə baxılır və qərar qəbul olunur.

*- Amma bir sıra şəxslər də həbsdədir və onların müraciəsi gedir...*

- Yəqin ki, bunların bir hissəsi də Respublika Günü ilə əlaqədar olaraq azadlığa buraxılacaq. Bilirsiniz ki, 28 May ərəfəsində də bizdə əfv fərmanı olur. Bu, müraciətlərdən, Əfv Komissiyasından və ən əsası da bu səlahiyyətin sahibi olan cənab prezidentdən asılıdır.

*- Deməli, beynəlxalq təşkilatlar 28 Maya qədər susmağı bacarsalar, növbəti əfv olacaq?*

- Bəli. Hər zaman 28 May ərəfəsində bizdə əfv fərmanı olur. Hesab edirəm ki, Respublika Günü ərəfəsində bu da vacib addımlardan biridir. Ümumiyyətlə, ümummilli lider hakimiyyətə gəldikdən sonra Azərbaycanda 20-dən artıq əfv sərəncamı, bir neçə amnistiya aktı olub. Ən böyük amnistiya aktı isə Mehriban xanım tərəfindən irəli sürüldü ki, bu da təqribən 17-18 min insanı əhatə etdi. Bu proses davam edir. Biz dəfələrlə humanist yanaşmaların şahidi olmuşuq. Məsələn, atasının dünyasını dəyişməsi ilə əlaqədar Qənimət Zahid və qardaşının bir həftə müddətinə azadlığa buraxılması, o cümlədən Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublunun övladının vəfatı ilə əlaqədar müvəqqəti azadlığa buraxılması, yaxud Leyla və Arif Yunusun səhhətini nəzərə alaraq onların cəzasının dəyişdirilməsi kimi hallar olub. Həmçinin İntiqam Əliyevin cəzasının yüngülləşdirilməsi barədə elə bugünlərdə qərar verildi. Azərbaycan hökuməti və prezidenti həmişə belə humanist addımlar atıb.

*- Hakimiyyətin müxalifətlə növbəti dialoqu gözlənilirmi?*

- Bir sıra partiyalarla dialoq gedir. Təbii ki, AXCP ancaq xarici təşkilatların tapşırığını gözləyir. Əgər qulluq etdikləri təşkilatlar göstəriş versə, onda AXCP hamıdan birinci gəlib orda oturacaq. Qalan təşkilatların hər biri öz təkliflərini irəli sürə bilər və müzakirə olunacaq məsələləri irəli sürənlər də var. Yəqin yaxın vaxtlarda bu məsələlər müzakirəyə çıxarılacaq.

*- Deputat həmkarınız Araz Əlizadə himnin sözlərinin dəyişdirilməsini təklif edib. Bu təklifə sizin münasibətiniz necədir?*

- Himnə toxunmaq olmaz! O iki dahi şəxsiyyətin yazdığı bir himndir. Biz qəbul etmişik, geriyə addım atmamalıyıq. Həm himnimiz, həm bayrağımız yerindədir. Düzdür, gerb məsələsində bir balaca nəsə demək olar. Yəni Azərbaycan SSRİ-nin gerbi Azərbaycanı daha çox əhatə edirdi. Lakin o da qəbul olunubsa, artıq məsələ bitib. Dəyişiriksə, onda tariximizin üstündən xətt çəkmiş oluruq.

❑ **Elşad PAŞASOY**

# Somalidə öldürülən azərbaycanlı qadının cənazəsi bu gün Vətənə gətiriləcək

**Azərbaycan XİN:** "Kəmalə İsmayılovanın uşaqlarının yaralanması və həyat yoldaşının vəziyyəti haqda heç bir məlumat yoxdur..."







**Somalinin paytaxtı Moqadişoda mikroavtobusa edilən hücum nəticəsində ölən və yaralanan Azərbaycan vətəndaşlarının taleyindən ailə üzvləri xəbərsizdir. Yaralananların harada olmasından xəbərsiz olan ailə üzvləri onlarla telefon əlaqəsi də saxlaya bilmirlər.**

Xatırladaq ki, martın 30-da Moqadişoda fəaliyyət göstərən Türk Özəl Liseyinin mikroavtobusuna edilən silahlı basqın nəticəsində 5 nəfər öldürülüb, 6 nəfər yaralanıb. Ölənlər türk liseyinin müəllim, şagird və digər işçiləri olub.

Onlardan biri Azərbaycan vətəndaşı 1982-ci il təvəllüdlü, İsmayılova Kəmalə Savalan qızıdır. Digər ölənlər türkiyəli müəllim Hıdır Çalka, mikroavtobusun sürücüsü, liseyin mühafizəçisi və tərcüməçisi olub. Həlak olanlar arasında uşaq yoxdur. Ölkə mətbuatında yaralananlar arasında Kəmalə İsmayılovanın uşaqları - 11 yaşlı Nihad və 10 yaşlı Nicat İsmayılovun da olduğu bildirilir.

Kəmalə İsmayılova 1 il 6 ay imiş Somalidə müəllimə işləyirmiş. Həyat yoldaşı Əflatun İsmayılov isə tərcüməçi olaraq çalışırmış. Azərbaycanlı ailə Somaildən əvvəl Türkiyədə liseylərdən birində çalışıb. Somalidəki liseyin direktoru Azərbaycan vətəndaşı Bülənt Ərgünəşdir. O, Əflatun İsmayılovun yeznəsidir. Kəmalə İsmayılova əslən Mingəçevir şəhərindəndir. Əflatun İsmayılov isə Göyçayın Ləkçılpaq kənd sakini olub.

**Ə.İsmayılovun əmisi Arif İsmayılov musavat.com-a açıqlamasında bildirdi ki, hazırda qardaşı oğlunun və uşaqlarının harada olmasından xəbərsizdirlər:** "Hər kəs onlardan xəbər gözləyir. Bildiyimiz elə mətbuatdan oxuduğumuzdur. Əlaqə saxlaya bilmirik. Kəmalənin də ailə üzvləri Mingəçevirdən gəliblər. Hamımız kənddə onlardan xəbər gözləyirik. Deyirlər ki, Əflatunun da vəziyyəti pisləşib. Heç kimdən məlumat öyrənə bilmirik. Uşaqlar necədir, xəbər ala bilmrik ".

Arif İsmayılov onu da qeyd etdi ki, Türkiyənin Xarici İşlər Nazirliyindən ailə üzvlərinə verilən məlumata görə, Kəmalə İsmayılovanın cənazəsi bu gün Azəbaycana yola salınacaq.

**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev musavat.com-a bildirdi ki, Azərbaycanın Ankaradakı səfirliyindən verilən məlumatda yalnız Kəmalə İsmayılovanın vəfat etməsi məlumatı var. Onun sözlərinə görə, K.İsmayılovanın uşaqlarının yaralanması və həyat yoldaşının vəziyyətinin pisləşməsi ilə bağlı heç bir məlumat yoxdur:** "Rəsmi məlumat yalnız Kəmalə İsmayılovanın vəfat etməsidir. Digər məlumatlar haqda rəsmi bilgi yoxdur. Əgər bu barədə məlumat olarsa, açıqlama veriləcək".

Türkiyə mətbuatı silahlı basqının edildiyi mikroavtobusun fotolarını da yayıb.

❑ **İlkin MURADOV**



# Nardaranlıların məhkəməsi apreldə başlayır

Qəsəbədə ara küçələrdə divarlara dini şüar yazdığı üçün saxlanılan şəxslər isə azadlığa buraxılıb

**Tale Bağırzadənin məhkəməsi zamanı aksiya keçirmək istəyərkən saxlanılanlar və Nardaranda dini şüarlar yazarkən həbs olunanlar azadlığa buraxılıb. Ötən il həbs olunanların isə aprel ayında məhkəməsi olacaq.**

Musavat.com xəbər verir ki, bu ilin mart ayının 1-də Nardaran qəsəbəsində ara küçələrdə divarlara dini şüar yazdığı üçün saxlanılan şəxslər azadlığa buraxılıb. Onlar verilən 24 sutkalıq həbs cəzasını çəkdikdən sonra sərbəst buraxılıblar.

Xatırladaq ki, martın 1-də küçələrə dini şüarlar yazmaq istəyən 32 nəfər şəxs saxlanılmışdı. Onlardan 8-i həbs edilmişdi. Digərləri isə sərbəst buraxılmışdı.

Bundan əlavə, ötən ilin noyabr ayında baş verən Nardaran hadisələrindən sonra həbs edilənlərin aprel ayında məhkəmələri baş tutacaq.

Müsəlman Hərəkatı Birliyinin rəhbəri Tale Bağırzadə və digərləri məhkəmə qarşısına çıxarılacaq. Onların sayı barədə rəsmi məlumat verilmir. Lakin əldə etdiyimiz məlumata görə, polislə silahlı qarşıdurma zamanı Tale Bağırzadə ilə birgə həbs edilən 14 nəfərlə birlikdə həbs edilənlərin sayı 20 nəfərdən çoxdur.

Xatırladaq ki, Nardaranda dindarlarla polis arasında baş verən silahlı qarşıdurma zamanı 2-si polis əməkdaşı olmaqla, 6 nəfər dünyasını dəyişmişdi.

Həbs edilənlərə qarşı Cinayət Məcəlləsinin 120 (qəsdən adam öldürmə), 214 (terrorçuluq), 220 (kütləvi iğtişaş), 228 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 233 (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama), 283 (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) və 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və zor tətbiq etmə) maddələri üzrə ittiham irəli sürülüb.

Əldə etdiyimiz digər bir məlumata görə, bu ilin fevral ayının sonunda Tale Bağırzadənin məhkəməsi zamanı aksiya keçirməyə cəhd edərkən saxlanılan şəxslər də sərbəst buraxılıblar.

Xatırladaq ki, aksiyada 15-20 nəfər iştirak etmişdi. Saxlanılanlardan Bakı şəhər sakinləri 1988-ci il təvəllüdlü Murad Şahin oğlu Qurbanov, 1993-cü il təvəllüdlü Lətif Xalid oğlu Cəfərli və əvvəllər CM-in 234.1-ci maddəsi ilə məhkum olunmuş 1986-cı il təvəllüdlü Rəvan İlham oğlu İsmayılov inzibati qaydada həbs edilmişdilər. Digərləri isə ifadələri alındıqdan sonra sərbəst buraxılmışdılar.

❑ **İ.MURADOV**

# Bakıda Öcalanı təbliğ edən kitabın satılması xəbəri yayıldı

**Şahbaz Xuduoğlu:** "Mənə dəfələrlə bu kimi kitabların çapı üçün müraciətlər olub, ancaq..."

**Aydın Mirzəyev:** "Azərbaycanda xaricdəki təşkilatların terror təşkilatı kimi tanınması praktikası yoxdur"

**Əvəz Zeynallı:** "PKK türk millətinin düşmənidir, onu təbliğ edən ədəbiyyatın yayılmasına qarşıyam"




**Bakıda PKK lideri Abdulla Öcalana həsr olunmuş kitab satılması haqqında məlumat yayılıb. Məlumat ilk olaraq sosial şəbəkədə peyda olsa da, sonradan bunu bir çox saytların xəbər formasına salması ilə məsələ ictimaiyyətdə geniş müzakirə obyektinə çevrilib.**

Belə ki, Müslüm Yücelin "Abdulla Öcalan - Amaradan İmralıya" kitabının fotosu paylaşılaraq, bunun "Əli və Nino" Kitab Mağazaları Şəbəkəsində satıldığı iddia olunub. Kitabda Öcalanın terrorçu kimi deyil, bir qəhrəman kimi təqdim olunduğu bildirilir.

**Məsələ ilə bağlı adını çəkdiyimiz mağaza ilə sıx əməkdaşlıq edən "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu ilə əlaqə saxladıq. Ş. Xuduoğlu "Yeni Müsavat"a açıqlamasında bu kimi kitabların çap edilməsi və yayılmasını doğru saymadığını dedi:** "Ümumilikdə kitabların çap edilməsinin tərəfindəyəm. Ancaq elə kitablar var ki, onların yayılmasını, əlbəttə ki, istəmərəm. Qeyd edilən məsələyə gəlincə isə Öcalan minlərlə insanın qanının axmasına səbəb olan bir adamdır. Onun kitabının hər hansı formada yayılmasını istəmərəm. Mənə də dəfələrlə bu kimi kitabları çap etməyim üçün müraciətlər olub. Misal üçün, Hitlerin "Mənim mübarizəm" kitabı ilə bağlı müraciətlər almışam. Ancaq bu kitabı çap etməmişəm. Hesab edirəm ki, insanlara daha çox insani dəyərləri aşılayan kifayət qədər kitablar var ki, onları nəşr edərək yaymaq lazımdır, nəinki aqressiyanı təbliğ edən, qisasçılığı yayan kitabları... Bir daha qeyd edim ki, bu cür kitabların yayılmasına tərəfdar deyiləm".

**"Əli və Nino"da bəhs etdiyimiz kitabın satılmasına gəlincə isə Ş. Xuduoğlu aşağıdakıları bildirdi:** "Məncə, bu məsələ artıq təkzib olunub. Çünki qeyd etdiyimiz mağazalar şəbəkəsində, ümumiyyətlə, belə bir kitab satılmayıb. Sosial şəbəkələrdə kitabın şəkli paylaşılaraq, mağazanın adı çəkilib. Ancaq hesab edirəm ki, burada qərəzli münasibət var, çünki dediyim kimi, orada belə bir kitab satışda olmayıb".

**Onu da qeyd edək ki, Azərbaycan PKK-nı rəsmi qaydada terrorçu təşkilat kimi tanımayıb. Bu halın, PKK ilə bağlı kitabların ölkədə sərbəst formada satılmasına təsiri ilə bağlı isə qəzetimizə deputat Aydın Mirzəzadə münasibət bildirdi. Onun sözlərinə görə, Azərbaycanda xaricdəki təşkilatların terror təşkilatı kimi tanınması praktikası yoxdur:** "PKK qonşu və dost Türkiyənin ərazi bütövlüyünü şübhə altına alan, orada terror aktı törədən bir təşkilatdır. Türkiyəyə təhdid göstərən istənilən təşkilat avtomatik şəkildə, hər hansı bir parlament qərarı olmadan Azərbaycana da artıq düşmən təşkilat kimi qəbul edilir. Bəhs edilən kitabın Bakıda satılması informasiyası ilə rastlaşmamışam. Lakin əgər belə bir hal varsa, o zaman bununla Azərbaycanın hüquq-mühafizə orqanları ciddi şəkildə məşğul olmalıdırlar".

Xatırladaq ki, 2004-cü ildə "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı Adolf Hitlerin "Mənim mübarizəm" əsərini Azərbaycan dilinə tərcümə edərək, yaydığı üçün onun barəsində cinayət işi açılmışdı.

**Öcalandan bəhs edən kitabın Bakıda satılması ilə bağlı onun da fikrini aldıq. O, PKK-nı türk millətinin düşməni adlandırdı:** "Bu təşkilatı Türkiyənin dostları və Avropa dövlətləri terror təşkilatı elan edib. Bu, 35 mindən çox türk əsgərini, 30 mindən çox mülki vətəndaşı öldürən qanlı təşkilatdır. Bu baxımdan PKK-nı təbliğ edən ədəbiyyatın yayılmasına fikir olaraq qarşıyam. Doğrusu, həmin ədəbiyyatı oxumamışam. Ancaq bunu mənim tərcümə etdiyim Hitlerin kitabı ilə qarışdırmamaq lazımdır. Hitlerin kitabı tarixi və ideoloji kitabdır. Böyük bir dünya müharibəsinin yaranmasına səbəb olub. Kitabın da tərcüməsi ideoloji məsələdir. PKK-nın təbliği isə başqa məsələdir".

❑ **Əli Rais**

MÜSAVAT
N 68 (6389) 1 aprel 2016




# ABŞ TAP-a dəstək verdi, bəs Putin nə edəcək?

**Azərbaycan prezidenti İlham Əliyev və ABŞ dövlət katibi Con Kerrinin görüşündə əsas müzakirə mövzularından biri də "Cənub Qaz Dəhlizi" layihəsi olub. C.Kerri bu layihənin önəmini və Azərbaycan tərəfinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib: "Hesab edirəm ki, prezident Əliyev, xüsusilə "Cənub Qaz Dəhlizi" layihəsinə etdiyi rəhbərliyi ilə bu ehtiyacların bəzilərinin necə qarşılanması üçün çox ciddi səylər göstərmiş və bu məsələni diqqət mərkəzində saxlamışdır. Bu, Avropanın uzunmüddətli strateji maraqları naminə və səmimi söyləsəm, vacib olan enerji mənbələrinin şaxələndirilməsinə cəhd göstərmək üçün atılmış çox ciddi bir addımdır".**

İlham Əliyev isə cavabından Amerika hökumətinə layihənin icrasına göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib: "Biz bu layihənin icrasına ciddi dəstək göstərdiyinə görə Amerika Birləşmiş Ştatlarının hökumətinə çox minnətdarıq. Səmimi desəm, bu dəstək olmasaydı, bu layihənin həyata keçirilməsi üçün daha çox müddət və səylərin göstərilməsi tələb oluna bilərdi. İşlər vaxt cədvəlinə uyğun gedir, işlər vaxtında icra olunacaq və 2-3 il ərzində "Cənub Qaz Dəhlizi" layihəsi işlək olacaqdır".

Cəmiyyətdə gedən müzakirələrdən biri də Amerika rəsmisi ilə Azərbaycan prezidenti arasında baş tutan bu müzakirələrin Rusiyanın qəzəbinə səbəb olacağı və Putinin Azərbaycana qarşı hər hansı sərt addım atacağı ilə bağlıdır. Bəs görəsən, bu layihənin reallaşması və son görüşdəki müzakirələr həqiqətən də şimal qonşumuzun ölkəmizlə münasibətlərində soyuqluq yarada bilərmi?

**"Yeni Müsavat"a açıqlamasında qeyd etdiyimiz mövzuya toxunan politoloq, Atlas Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, dövlət başçısı İlham Əliyev artıq üçüncü dəfədir ki, Azərbaycanın iri enerji layihələrinin reallaşmasına göstərdiyi dəstəyə görə Amerikaya minnətdarlıq edir:** "Bundan öncə də Bakıdakı böyük toplantıda ölkə başçısı Amerikaya minnətdar olduğunu bildirmişdi. Bu həqiqətən də belədir. İlham Əliyev həm Con Kerri ilə görüşdə, həm də Bakıdakı toplantıda bir məsələnin üstündə dayandı və xüsusilə vurğuladı ki, Amerika 90-cı illərdən bu yana həyata keçirilən enerji layihələrinə dəstək olub. Bakı-Tiflis-Ceyhan layihəsinə Amerikanın o zaman ciddi

## Elxan Şahinoğlu: "Əgər türkmən qazı da bu layihəyə qoşularsa, o zaman Rusiya..."


Vladimir Putin

dəstəyi var idi, Rusiyadan isə təzyiqlər var idi. Amerika Azərbaycana dəstək verməsəydi, bəlkə də bu layihələr reallaşmayacaqdı. Bu layihənin əslində Amerikaya elə də aidiyyəti yoxdur. Qaz Avropaya gedir. Buna baxmayaraq, Amerika Avropanın Rusiyadan qaz asılılığının azalması üçün bu layihəyə dəstək verir, hətta amerikalı diplomatlar Avropa ölkələrində bu layihə ilə bağlı lobbiçilik fəaliyyəti aparırlar.

**Bu məsələdə Rusiyanın Azərbaycana təzyiqlər edəcəyinə gəlincə, Elxan Şahinoğlu bildirdi ki, bu layihə, sadəcə, Azərbaycan qazının daşınması üçündür və hələ ki Rusiyanın bu məsələdə heç bir təzyiqi yoxdur:** "Rusiya daha çox NABUCCO layihəsindən narahat idi və onun reallaşmasını istəmirdi. Onu Rusiya əleyhinə siyasi layihə adlandırırdı. Ancaq "Cənub Qaz Dəhlizi" ilə bağlı Rusiyanın Azərbaycana elə də böyük təzyiqləri yoxdur. Bu layihə haqqında heç bir neqativ fikirlər də söyləmirlər. Burada söhbət Azərbaycan qazının Türkiyə üzərindən Avropaya daşınmasından gedir. Bu qaz ilkin məqamda o qədər də böyük həcmdə olmayacaq. İkinci tərəfdən, bu, Azərbaycanın müstəqil seçimidir. Ancaq əgər türkmən qazı da bu layihəyə qoşularsa və Xəzərin dibi ilə bu kəmərin çəkilməsi aktuallaşarsa, o zaman Rusiyanın təzyiqləri arta bilər. İndiki məqamda isə Azərbaycan öz qazını istədiyi ölkəyə sata bilər. Rusiya buna mane olmaz. Vladimir Putin və ya digər rusiyalı rəsmilərin çıxışında da "Cənub Qaz Dəhlizi" əleyhinə fikirlərə rast gəlinmir. Bu layihənin reallaşması artıq faktdır. 2-3 ilə bu layihə tam hazır olduqdan sonra Azərbaycan qazı Türkiyəyə və Avropaya çatdırılacaq. Amerika da Azərbaycana dəstəyini davam etdirəcək. Əgər Bakı-Tiflis-Ceyhan layihəsi bütün təzyiqlərə rəğmən reallaşdısa, TAP və TANAP layihələrinin reallaşmasına da elə ciddi maneə olmayacaq".

Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban isə Rusiyanın bu məsələdə, sadəcə, seyrçi mövqeyi tutacağını və heç bir əks addım atmayacağını vurğuladı: "Hesab etmirəm ki, Azərbaycanla Amerika rəsmiləri arasında "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı müzakirələr Rusiyanın neqativ reaksiyası ilə üzləşə bilər. Bundan 10 il öncə Azərbaycan özünün infrastruktur layihələrini, həm Bakı-Tiflis-Ceyhan neft kəmərini, həm Bakı-Tiflis-Ərzurum qaz kəmərini gerçəkləşdirərkən Rusiya bu layihələrin əleyhinə çıxmamışdı. O zaman Azərbaycan nə iqtisadi, nə də siyasi qüdrətinə görə indiki Azərbaycan səviyyəsində deyildi. Rusiya ilə münasibətlərdə indiki qədər istiləşmə yox idi. Ancaq Rusiya bu layihələrin əleyhinə çıxmamışdı. İndi də Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsini reallaşdırmağa başlayıb, artıq ilkin mərhələyə qədəm qoyulub. Rusiya da artıq başa düşür ki, reallaşdırılmağa başlayan bu layihə durdurula biləcək bir layihə deyil. Bu, artıq elan edildiyi vaxtda, Türkiyəyə və Avropaya "Şahdəniz" qazını çatdıracaq. Çünki burada həm Qərb şirkətlərinin, həm Azərbaycanın, həm də gələcək alıcıların ortaq maraqları var. Öz cənub qonşusunun qaz layihəsinin önündə əngəl yaratmaqla özünün Qərblə qarşıdurmaya getmək, konflikt yaratmaq heç də Kreml üçün yaxşı perspektiv vəd etmir. Rusiya artıq bunu başa düşür ki, bu layihənin reallaşmasını da 10 il bundan öncəki layihələr kimi müşahidə etməklə kifayətlənəcək".

❑ Nərgiz LİFTİYEVA

# Dolların qiyməti düşür ki, yenə bahalaşsın?



## Ekspert deyir ki, manatın möhkəmlənməsinin səbəbi milli valyuta qıtlığının yaranmasıdır

**Mərkəzi Bankın qərarı ilə Azərbaycan manatı dollar və avroya nisbətdə bir qədər bahalaşıb. Mərkəzi Bankdan verilən məlumata görə, martın 31-də dolların məzənnəsi 0,0165 qəpik ucuzlaşaraq 1,5421 manata düşüb. Avronun məzənnəsi isə 0,0155 qəpik azalaraq 1,7453 manat olub.**

Lakin iqtisadçı ekspertlərin manat yenidən ucuzlaşacaq dediyi ərəfədə, Mərkəzi Bankın milli valyutanı möhkəmləndirməsi cəmiyyətdə suallar doğurub. İddialar var ki, bazarda dollar qıtlığının yaranmasından istifadə edən Mərkəzi Bank manatı möhkəmləndirməklə əllərdəki dolları yığmaq və sonradan dolları yenidən bahalaşdırmaq niyyətindədir. Xatırladaq ki, AMB hər dəfə belə bir manevr edərkən milyardlarla manat pul qazanmış olur. Bəs görəsən, səslənən bu iddialar nə dərəcədə realdır. Manatın möhkəmlənməsinin iqtisadi əsasları var, yoxsa bu, süni şəkildə dollara olan inamı öldürməyə yönəlmiş addımdır?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, manatın möhkəmlənməsinin səbəbi əhalidə manat qıtlığının yaranmasıdır:** "Manatın dollara nisbətdə möhkəmlənməsinin əsas səbəbi dollarlaşma prosesinin son 3 ayda sürətlə getməsi, əhalinin vəsaitlərini, eləcə də biznes qurumlarının vəsaitlərini dollara çevirməsi, eyni zamanda Mərkəzi Bank tərəfindən manat bazasının azaldılması ilə bağlıdır. Mərkəzi Bankın siyasəti ondan ibarətdir ki, az manat və dollara olan az tələbat. Faktiki olaraq, Mərkəzi Bank pul bazasını 5 milyarddan aşağı endirib. Bu isə o deməkdir ki, rəsmi statistikaya əsasən pul bazası son 1 ildə 2 dəfədən çox azalıb. Faktiki olaraq, bu gün vətəndaşların əllərində manat yoxdur ki, onlar gedib dollar ala bilsinlər. Onların manatları artıq dollarlaşıb. Əvvəlki dövrlərdə dollar alıblar".

**İqtisadçı ekspertin sözlərinə görə, hazırda yaranan manat qıtlığının səbəbi Mərkəzi Bankın dekabrın 21-də verdiyi devalvasiya qərarıdır:** "Bu qərar cəmiyyətdə ciddi ajiotaj yaratdı və ajiotaj nəticə etibarilə ona gətirib çıxartdı ki, əlində manatla vəsaiti olan vətəndaşlar pullarını dollara çevirmək məcburiyyətində qaldılar. Çünki manatın kəskin şəkildə daha da ucuzlaşacağı ilə bağlı bir əminlik var idi. Bu baxımdan Mərkəzi Bankın ikinci devalvasiya qərarı yanlış addım idi və dollarlaşma prosesini sürətləndirdi. Bu gün manat qıtlığı var. Vətəndaşlar yığdıqları dolları cari xərclər üçün manata çevirməyə məcburdurlar. Yəni bu iqtisadi səbəblər inzibati müdaxilədən doğan səbəblərdir. Son zamanlar Mərkəzi Bank auksiona dollar çıxarır, lakin onu alan yoxdur. Son günlər dollara tələbat olsa belə, yenə də təklif sifarişdən çoxdur. Ona görə də manat möhkəmlənmir. Yəni, banklar dollara tələbi artırsalar yenidən dolların möhkəmlənməsi, manatın zəifləməsi müşahidə ediləcək".

**Vüqar Bayramov qeyd etdi ki, növbəti dövrdə də manatın məzənnəsi Mərkəzi Bankın pul bazarını nə dərəcədə genişləndirməsindən asılı olacaq:** "Bu gün manatın məzənnəsi auksiona çıxarılan dolların tam satılıb satılmaması ilə müəyyənləşdirilir. Əgər dollar tam satılırsa, bu, dolların məzənnəsinin möhkəmlənməsinə gətirib çıxarır. Ancaq təklif sifarişdən çox olursa, avtomatik olaraq manat möhkəmlənir, dollar zəifləyir. Mərkəzi Bankın pul bazası ilə bağlı məhdudlaşdırıcı siyasəti real sektorun inkişafını tormozlayır. Bu, real sektora çirkli pulların daxil olmasına gətirib çıxarır, yeni iş yerlərinin yaradılması və iqtisadiyyatın canlandırılması üçün arzuolunan siyasət deyil. Ona görə də Mərkəzi Bank mövcud siyasətini gec-tez dəyişməlidir. Əks halda, real sektorda iş yerləri bağlanacaq, alıcılıq qabiliyyəti kəskin aşağı düşəcək.

**V.Bayramov onu da bildirdi ki, bu gün rəsmi məzənnə bazardakı tarazlıq məzənnəsi deyil:** "Mərkəzi Bank bazardan çəkildiyini elan etsə, o zaman manatın bazardakı tarazlıq məzənnəsi indikindən daha aşağı olacaq. Birmənalı şəkildə manat dəyər itirəcək. Ancaq hələlik Mərkəzi Bank və Dövlət Neft Fondu bazarda qalır. Bu baxımdan növbəti dövrdə manatın məzənnəsinin necə dəyişməsi Mərkəzi Bankın pul bazasının necə dəyişməsindən asılıdır. Hazırda dollarlaşma prosesi son mərhələdədir. Bazarda dollar təklifi var. İnsanlar manat alırlar ki, cari xərclərini ödəyə bilsinlər. Mərkəzi Bank manat bazasını genişləndirsə, o zaman milli valyutanın möhkəmlənmə prosesi dayanacaq".

❑ Nərgiz LİFTİYEVA

# Sahibkar "özümü MTN generalının evi qarşısında yandıracam" deyir

## Ləğv edilmiş MTN-in İstintaq İdarəsinin azadlıqda olan sabiq rəisi Mövlam Şıxəliyevə şok ittihamlar

**Naxçıvan Muxtar Respublikasının keçmiş milli təhlükəsizlik naziri Vəli Ələsgərovun həbsi ilə bağlı rəsmi mənbələrdən hələ də hər hansı şərh verilmir. Sanki belə bir nazir olmayıb və onu qandallamayıblar. V.Ələsgərovun yaxınları da onun həbsi ilə bağlı danışmağa tələsmirlər. Redaksiyamıza daxil olan məlumatda iddia olunur ki, vaxtilə Naxçıvanda, Bakıda "at oynadan" Ələsgərovlar, onların ətraflarında olan şəxslər küçəyə çıxmağa belə ehtiyat edirlər. Onların mətbuata çıxıb V.Ələsgərovun həbsi haqda fikir söyləmələri də bu baxımdan inandırıcı deyil. Yada salaq ki, indiyədək onun həbs edildiyi, ev dustaqlığında saxlanıldığı barədə məlumatlar bir-birini əvəz edirdi.**

"Turan" agentliyinin Naxçıvandakı mənbələri sabiq nazirin bir neçə gün əvvəl həbs olunduğunu təsdiqləyib. V.Ələsgərovun həbsinin "formal səbəbi" kimi onun Naxçıvan MTN-in binasında təmir-tikinti işlərinə ayrılmış vəsaiti mənimsəməsi göstərilib. Əsl səbəb isə başqadır - Vəli Ələsgərovun ləğv edilmiş MTN-in sabiq şefi Eldar Mahmudovla yaxın əlaqələrinin güdazına getdiyinə şübhə yoxdur.

**Mövlam Şıxəliyevə şok ittihamlar**

Milli Təhlükəsizlik Nazirliyində (MTN) keçirilən məlum əməliyyatdan sonra qurumun rəhbərliyinə daxil olan vəzifəli şəxslərdən bir neçəsi azadlıqda qala bildi. Bunlar sabiq nazir Eldar Mahmudov, onun sabiq müavini Hilal Əsədov və qurumun istintaq idarəsinin sabiq rəisi Mövlam Şıxəliyevdir. Eldar Mahmudovla Hilal Əsədovun azadlıqda qalmaları haqda ən müxtəlif səpkili yazılar dərc olunub. Mövlam Şıxəliyev isə sanki son dövrlərə qədər kölgədə qala bilmişdi. Bugünlərdə ondan şikayətçilər - "Texnikabank"ın əmanətçiləri Xəqani Əzimov, Nizami Kazımov, Hüseyn Səfərov, Füzuli Əzimov, Hamil Rzayev, Vüqar Behbudov və digərləri ölkə başçısı İlham Əliyevə, baş prokuror Zakir Qaralova və daxili işlər naziri Ramil Usubova müraciət ediblər. "Təzadlar" qəzetinin yaydığı müraciətdə ləğv olunmuş MTN-in Baş İstintaq İdarəsinin sabiq rəisi, general-mayor Mövlam Şıxəliyevin, həmin idarənin şöbə rəisi Vüsal Ələkbərovun "Texnikabank" işi" ilə bağlı onları necə qorxudub külli miqdarda pullarını rüşvət formasında aldıqlarından bəhs olunur. Məlum olur ki, şikayətçilər "Texnikabank"ın Bakı filialına yatırdıqları əmanətlərinin şərinə düşüblər və MTN generalı Mövlam Şıxəliyev onları dolayısı ilə bu əmanətlərdən imtinaya məcbur etməklə savayı, həm də sonradan bu qədər pulu haradan aldıqlarını sorğu-sual etməklə onları həbslə hədələyib. Nəticədə kimi qorxusundan həmin əmanətdən imtina edib, kimisi generalın "çaldığı havaya oynamadığı üçün" həbs edilib, kimisi də külli miqdarda rüşvət verərək canını qurtarıb.



**Mərkəzi Bank "Texnikabank"da ziyan çəkənlərin pulunu ödəyibmiş!!!**

**Müraciət müəllifləri bildiriblər ki, Mərkəzi Bank həmin dövrdə onlara dəymiş ziyanı ödəmək üçün vəsait ayırıb, lakin həmin vəsait də MTN-çilər tərəfindən mənimsənilib. Müraciət müəllifləri mənimsənilmiş pullarının özlərinə qaytarılmasını, Mövlam Şıxəliyevin də Vüsal Ələkbərov kimi həbs edilməsini xahiş edirlər:** "MTN-in Baş İstintaq İdarəsinin şöbə rəisi Vüsal Ələkbərov zərərçəkmiş Nizami Kazımovun şikayəti əsasında həbs edildi və onun qanunsuz əməlləri sübuta yetirilib. Amma Vüsal Ələkbərova qanunsuz tapşırıqlar vermiş MTN-in Baş İstintaq İdarəsinin rəisi, general-mayor Mövlam Şıxəliyev hələ də azadlıqdadır. Bizim pullarımızı da şəxsən o mənimsəyib".

**"Hüseyn Səfərov Mövlam Şıxəliyevin şərtlərinə əməl etməli olur"**

**Qəzetdə Mövlam Şıxəliyevin Vüsal Ələkbərov vasitəsilə vaxtilə Respublika Əmanət Bankının sədri olmuş iş adamı Hüseyn Səfərovdan 2 milyon manat rüşvət almasından da söhbət açılır. Məlum olur ki, Hüseyn Səfərov da "Texnikabank"ın işində zərərçəkmiş kimi tanınıb:** "İstintaq prosesində Mövlam Şıxəliyev Hüseyn Səfərovu əmanətlərin qoyulmasında qanunsuz hərəkətlər etməsi bəhanəsi ilə az qala hər gün MTN-ə çağırıb sutkalarla dindirirdi. Bildiyimizə görə, Mövlam Şıxəliyev ondan həmin pulları hardan əldə etməsini söyləməsini tələb edirmiş. Sonradan şantaj edilərək həbs ediləcəyindən ehtiyatlanan Hüseyn Səfərov Mövlam Şıxəliyevin şərtlərinə əməl etməli olur. Və o, Şıxəliyevin sağ əli olan Vüsal Ələkbərov vasitəsilə tapşırıq alır. Nəticədə elə MTN-in binasında 2 milyon dollar general Mövlam Şıxəliyevə verilir. Həmin tarixə aid MTN-ə giriş-çıxış kameralarına baxış keçirilsə, Vüsal Ələkbərovun həmin pulu qəbul edərək yuxarı qaldırması təsdiqini tapar. Hüseyn Səfərov istintaqda zərərçəkmiş kimi tanınıb və bildiyimizə görə, onu bu yaxınlarda həbs edilmiş Vüsal Ələkbərovla üzləşdiriblər, Hüseyn Sərərov Vüsal Ələkbərovdan pulunu tələb edib"

**MTN-də 2 milyon manatı alınan sahibkar danışır...**

**Hüseyn Səfərov da 2 milyon məsələsi ilə bağlı açıqlama verib:** "Bəli, həmin iş üzrə mən zərərçəkmiş kimi tanınmışam. Külli miqdarda pulumu mənimsəyiblər, bu işdə əsas günahkar kimi MTN-in Baş İstintaq İdarəsinin rəisi Mövlam Şıxəliyevi və onun "danışan dili", tapşırıqlarını icra edən, bizi həbslə hədələyib pullarımızı şantaj yolu ilə ələ keçirən Vüsal Ələkbərovu bilirəm, ifadəmdə də belə yazmışam. İstintaq getdiyindən başqa heç nə deyə bilmirəm. Əslən Ağdaşdan olan Mövlam Şıxəliyevin rayonda çoxsaylı obyektləri, Novxanıda dənizə açılan milyonlarla dəyəri olan villası, sirkin yanındakı "AF-SENTR"də bir neçə mənzili var, "Sahil" ticarət mərkəzinin üstündəki binada bir mərtəbəni bütövlükdə alıb, orda bütün ailə üzvlərinin ayrıca mənzilləri var, burada yaşayırlar. "Gənclik"də 10-a yaxın mənzillərinin olduğunu bilirik. Əvvəllər Yasamalda "Xuruşşovka"da yaşamış bir adam birdən-birə bu qədər sərvətə necə nail olub? Hətta o, Nizami Kino Mərkəzinin yanında Musa Nağıyevin olmuş qədim binada 2 milyona mənzil alıb, amma orada yaşamır. Onun bu əmlakları satılaraq biz zərərçəkənlərə qaytarılmalıdır. Əgər Mövlam Şıxəliyev yaxın günlərdə şantaj yolu ilə məndən aldığı 2 milyon dollar pulu qaytarmasa, özümü onun "Sahil" ticarət mərkəzinin qarşısında yandıracağam. İndidən mətbuat vasitəsilə bəyan edirəm ki, onun şantajlarından neçə ildir xəstəlik tapmışam, müflis vəziyyətə düşmüşəm. Dəfələrlə bu barədə özünə demişəm, pulumu qaytarmağa söz verib, amma hər dəfə aldadır, qaytarmır. Artıq belə yaşamaqdan bezmişəm. Bu yaxınlarda isə zəng edərək bir də xəbərdarlıq etmişəm, söz verib ki, qaytaracaq. Amma bir gün sonra mobil telefonlarını söndürüb".

❑ **E.HÜSEYNOV**

# Bankların birləşmək istəməməsinin ilginc səbəbi

## Elə banklar var ki, onlar müflis olmağa razıdırlar, amma birləşməyə yox...

**Bu ilin əvvəlindən banklar qəflətən və ardıcıl şəkildə bağlanmağa başlasa da, az sonra proses səngidi. Mərkəzi Bankın hətta bir gündə iki bankı bağlamaq kimi tələsik qərarları bu işin davamlı olacağını proqnozlaşdırmağa təkan verirdi. Əksər ekspertlər bu gedişlə ölkədəki bankların azı yarısının bağlanacağını ehtimal edirdilər. Ancaq az sonra proses dayandı və bağlanan bankların müqaviməti başladı, məhkəməyə müraciət edən banklar oldu. Artıq Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılıb. Onun banklarla bağlı Mərkəzi Bankın addımını davam etdirib-etdirməyəcəyi sual altındadır. Ekspertlər bununla bağlı fikirlərini musavat.com-la bölüşüblər. Banklar bundan sonra birləşə bilərmi və əks halda, palata onları bağlayacaqmı?**




**Ekspert Vüqar Bayramov** məsələ ilə bağlı bildirib ki, Azərbaycan bankları birləşməyə meylli deyillər: "Bunun da səbəbləri var. Çünki hər iki bank, hətta bütövlükdə hər biri birləşmədə maraqlı deyillər. Nəzərə alsaq ki, özəlləşdirilərdən sonra səhmdar cəmiyyətə çevrilsələr belə, sonradan bir əldən idarə olunan firma kimi fəaliyyət göstərməyə başlayırlar. Yəni faktiki olaraq bu gün dünyada baş verən, həm bank, həm biznes sferasında baş verənlərin əksi Azərbaycanda baş verir. Yəni bu gün istənilən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə belə bankların birləşməsi baş versə də, Azərbaycanda əks proses gedir. Azərbaycanda daha çox banklar ayrılıqda fəaliyyət göstərmək istəyir. Birləşərək öz imkanlarını genişləndirmək aparmaqla bağlı problem yaşayırlar. Güman olunur ki, əsas səbəbi bankların idarəedilməsində olan problemlərlə bağlıdır. Çox təəssüf ki, banklar uzun müddət yüksək faizli kreditlərdən kifayət qədər gəlir əldə ediblər. Bankların idarəedilməsindəki problemlər onların birləşməsinə mane olur. Çünki onlar mövcud problemlərlə üzləşməkdə maraqlı deyillər. İkinci səbəb odur ki, bankların uzun müddət gəlir əldə etməsi onların xüsusən yüksək gəlirə aludə olmasına gətirib çıxarıb. Onlar birləşərək daha az gəlirə qane olmaq istəmirlər. Elə banklar var ki, onlar müflis olmağa razıdırlar, amma birləşməyə deyil. Nəticə etibarı ilə bu da bankların birləşməsinə kifayət qədər ciddi problemlər yaradır. Mərkəzi Bank bankların birləşməsini tövsiyə edir, bəzi hallarda tələb edir. Amma bankların birləşməsi inzibati yolla baş verməməlidir. Bankların birləşməsi bank sektorunun liberallaşması hesabına baş verməlidir. Əgər bank sektoru liberallaşsa, bank sektorunda müstəqil banklar fəaliyyət göstərsə, rəqabət əsasında öz işlərini qursalar, onda təbii ki, bankların birləşməsi prosesi sürətlənəcək. Yeni yaradılan palata bank sektorunun liberallaşmasını həyata keçirəcəksə, palatanın bankların birləşməsinə müsbət təsiri olacaq. Yəni palatanın indiki məqamda əsas rolu ondan ibarət ola bilər ki, sektorda rəqabəti gücləndirsin, bununla da inzibati deyil, stimullaşdırıcı yollarla bankların birləşməsi prosesini sürətləndirsin. Eyni zamanda birləşən banklarla bağlı stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir. Birləşmiş banklara daha böyük həcmli mərkəzləşdirilmiş kreditlərin verilməsini təklif edirik. Əks halda, inzibati metodlarla bankların birləşməsi bank sektoru üçün yaxşı heç nə vəd etmir".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, hər bir bank sahibi istəyir ki, onun bankı bazarda qalsın, fəaliyyət göstərsin:** "Heç kəs bağlanmaq istəmir. Mən o bankları da başa düşürəm. Yəni deməl istəyirlər ki, bizdən də pis vəziyyətdə olan banklar var. Niyə onları bağlamırlar? Yəni hər bir şəxs, yəni hüquqi şəxs də mövcudluğunu qorumaq istəyir. Həm də unutmayaq ki, bank sahiblərinin özlərinin də həmin banklarda pulları qalıb. Yəni bu məsələ də var. Ona görə də istəyirlər ki, bankları təzədən özlərinə qaytarılsın ki, pullarını çıxara bilsinlər. Bunun arxasında duran müəyyən şəxsi maraqlardır. Amma bütövlükdə deyim ki, bağlanan banklar elə bağlanmalı idi. Onların vəziyyəti onsuz da pis idi və bağlanmalı idilər. Sadəcə, hesab edirəm ki, daha pis vəziyyəti olan bankların bağlanması ədalətsizlikdir. Bağlanan bankların təzədən bazara qaytarılması bank sistemi üçün arzuolunan deyil. Əksinə, bu, çox pisdir. Misal üçün, Azərbaycanda "Caspian Development Bank" var. Əvvəllər Universal Bank idi. Bir dədə bağladılar, təzədən məhkəməyə verdi. Sonra adını "Kövsərbank" qoydu, fəaliyyət göstərdi. Mərkəzi Bank onu yenə bağladı. Məhkəmədə yenə uddu, qayıtdı, gəldi. İndi də "Kövsərbank" adını dəyişdi, "Caspian Development Bank" qoydu. Hansı ki, Müşahidə Şurasının sədri elə Maliyyə Bazarlarına Nəzarət Palatasının icraçı direktorudur. Həmin bank dördüncü rüb ərzində təkcə devalvasiyadan 36 milyon qazanıb. Yəni belə çıxır ki, bank elə valyuta alveri ilə məşğul imiş. Milli valyutamızı devalvasiyaya uğradan banklardır. Bununla demək istəyirəm ki, bağlanan bankların bazara qayıdanda elə də pozitiv fəaliyyətləri olmur. Bu bankın timsalında görürük ki, təkcə dördüncü rübdə 36 milyon pulu devalvasiyadan qazanıb. Sadəcə, valyuta alveri edib. Deməli, milli valyutamızın devalvasiyasına köməklik edib. Yəni ona görə, deməli, indiki banklar da bağlanandan sonra qayıdıb gəlsələr, onlar da bu cür işlərlə məşğul olacaqlar. Yəni bu baxımdan, istəməzdim ki, onların fəaliyyəti bərpa olunsun".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 68 (6389) 1 aprel 2016

**Sahibsiz qalan çanta bir neçə saniyə ərzində təhlükəsizlik xidmətinin əməkdaşlarının diqqətini çəkir. O an çantanın sahibinin kim olduğu ətrafdakılardan soruşulur. Sahibi tapılır və ona xəbərdarıq edilir ki, çantasını yanından ayırmasın. İnsanlar arasında gəzişən, çantaları iyləyən balaca it gözə dəyir. Uşaqlar onunla oynamaq istəsə də, onun öz işi var. Bu it ətrafda ola biləcək təhlükəli çantaları aşkar etmək üçün "iş başındadır".**



# Bakı Hava Limanı necə qorunur-əməkdaşımızın gördükləri...

## Balaca it ətrafda ola biləcək təhlükəli çantaları aşkar etmək üçün "iş başındadır"; hansısa bir şəxsin aeroportun binasına partlayıcı maddə keçirməsi, sadəcə, mümkün deyil

Bu, Bakı Beynəlxalq Hava Limanının 1-ci terminalına daxil olarkən ilk gördüklərimizdir.

Buraya gəlməkdə məqsədimiz Brüssel aeroportunda baş verən terror hadisələrindən sonra ölkəmizin ən böyük hava limanında təhlükəsizliyin necə təşkil olunduğunu öyrənməkdir.

**Terminala daxil olanadək yoxlama**

Hava limanının 1-ci terminalında beynəlxalq reyslər həyata keçirilir. Aeroporta "BakuBus"la gəlirik. Marşrut xəttinin sonuncu dayanacağı elə 1-ci terminalın qarşısıdır. Hava limanı ərazisinə daxil olarkən avtomobillərdə və avtobuslarda heç bir yoxlama aparılmır. Heç bir mane ilə qarşılaşmadan 1-ci terminala yaxınlaşırıq və binaya daxil oluruq. Binaya daxil olduqdan bir neçə metr sonra sərnişinlər və çantalar yoxlanılır.

Əl çantamızı xüsusi cihazdan keçirdikdən sonra təhlükəsizlik xidmətinin əməkdaşları ciblərimizdə olan bütün əşyaların da boşaldılmasını və cihaza qoyulmasını istəyir. Bundan sonra biz də xüsusi cihazdan keçirik. Sonra təhlükəsizlik xidmətinin əməkdaşları bizi bir daha yoxlayır.

Dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da hava limanları ən strateji obyektlər sırasında yüksək təhlükəsizlik tədbirləri görülərək qorunur. Çünki hava limanları terror üçün əsas hədəf seçilə biləcək məkanlardandır. Hava limanlarında baş verə biləcək istənilən terror hadisəsi həmin ölkənin beynəlxalq nüfuzuna da zərbə kimi qiymətləndirilir. Dövlət rəsmilərinin, turistlərin daim istifadəsində olan hava limanları yüksək diqqət mərkəzində saxlanılan dövlət əhəmiyyətli obyektlərdəndir.

Onu da qeyd etməliyik ki, bütün görülən təhlükəsizlik tədbirlərinə baxmayaraq terror hadisəsi ən böyük dövlətlərin belə "qorxulu yuxusudur". Bunun son nümunəsini Belçika hava limanında törədilən iki partlayış zamanı bütün dünya gördü.

Təbii ki, hər dəfə hansısa bir ölkədə terror hadisəsi baş verdikdən sonra digər ölkələrdə də təhlükəsizlik tədbirləri son həddədək yüksəldilir. Elə Azərbaycanda da...



**Qayıdaq hava limanına...**

Aeroportun təhlükəsizlik xidmətinin bir neçə əməkdaşının tez-tez ətrafda gəzişdiyinin şahidi oluruq. Onların yanında bomba və narkotik vasitələr axtarması üçün xüsusi yetişdirilmiş it diqqətimizi çəkir. Təhlükəsizlik xidmətinin əməkdaşları nəzarətsiz qalan çantalara xüsusi diqqət ayıraraq sahiblərini tapmağa çalışırlar. İt isə qarşısına çıxan bütün çantaları iyləməyə davam edir. Binanın müxtəlif yerlərində olan polis əməkdaşları da nəzərimizdən qaçmır.

Təhlükəsizlik xidmətinin əməkdaşları ilə söhbətimizdə öyrənirik ki, bu cür yoxlamalar 24 saat davam edir. Yeni növbə dəyişdikdən sonra da eyni işlər görülür.

Beynəlxalq reyslərin həyata keçirildiyi terminalın bir giriş qapısı var. Hava limanı əməkdaşları belə binanı tərk edib yenidən qayıdarkən təhlükəsizlik cihazlarından keçərək yoxlanılır.

Bu müşahidələrimizdən sonra belə bir qənaətə gəlmək olar ki, hansısa bir terror hadisəsinə cəhd edən şəxsin aeroportun binasına partlayıcı maddə keçirməsi mümkün deyil. Lakin bir məqamı bir daha qeyd etmək lazımdır ki, hava limanının ərazisinə heç bir yoxlama olmadan keçmək mümkündür. Daha sonra da aeroport binasına daxil olduqdan bir neçə metr sonra yoxlama aparılır. Belə olan halda da düşünmək olar ki, terror hadisəsi planlaşdıran şəxs bu boşluqdan yararlana bilərmi?

**Yerli terminaldakı vəziyyət**

1-ci terminaldan ayrılaraq piyada ölkədaxili uşuların həyata keçirildiyi terminala yollanırıq. Əvvəlcə onu bildirək ki, beynəlxalq uçuşların həyata keçirildiyi təhlükəsizlik tədbirləri və göstərilən xidmət səviyyəsi II terminalda qat-qat yüksəkdir.

Bu terminala daxil olduqdan sonra çantalarımız yoxlanılır. İlk terminalda olduğu kimi, burada da eyni qaydada yoxlama işləri aparılır. Bu terminalın birinci mərtəbəsində Bakıya gələn təyyarələrdən enən sərnişinlər qəbul edilir, ikinci mərtəbədə isə digər bölgələrə gedən sərnişinlər yola salınır.

Hər iki hava limanında sərnişinlər binaya daxil olduqlarından daha diqqətlə və incəliklə təyyarəyə minərkən sonuncu dəfə yoxlanılırlar.

Hava limanının binasından ayrılarkən aeroport əməkdaşlarının binaya daxil olarkən yoxlanıldığını gördük. Diqqətimizi çəkən bu məqamla bağlı təhlükəsizlik xidmətinin əməkdaşlarından biri ilə söhbət etməyə çalışdıq. İlk sualımız bəzi aeroport işçilərinin yoxlamadan keçmədən binaya daxil olması ilə bağlı olur. Bu cür hallara yol verilməsinin təhlükəli olub-olmadığını soruşuruq.

Aldığımız cavab belə olur: **"Hər kəs yoxlamadan keçməlidir. Kimliyindən və vəzifəsindən asılı olmayaraq. Bu mütləqdir. Düzdür, bəzən əməkdaşlardan bəziləri yoxlamadan keçmir və ya ciddi şəkildə yoxlanılmır. Ancaq bu da həmin işçilərin məsuliyyətsizliyidir. Belə səhvlərə yol verən əməkdaşlar cəzalandırılıb. Hər yerdə nəzarət kameraları var. Buna görə də işçilər daha məsuliyyətli olmağa məcburdur".**

Bəs aeroport ərazisinə daxil olarkən yoxlamanın aparılmaması və terminalların binasına girdikdən sonra çantaların yoxlanılması necə? Bu hallara görə ehtiyatlanmağa, narahat olmağa dəyərmi? Bu barədə də hava limanı əməkdaşı ilə söhbətləşirik. **"Bəzən düşünənlər olur ki, aeroportda və ya başqa bir ərazidə terror hadisəsi törətmək asanlıqla mümkün olur. Amma bu belə deyil. Xüsusi xidmət orqanları var. Bütün bu işlər onların nəzarətindədir. Bu dediklərinizi onlar da bilir və nəzarətdə saxlayır. Bizim bilmədiyimiz və görmədiyimiz işlər də görülür"** deyə, təhlükəsizlik xidmətinin əməkdaşı bildirir və bizi əmin etməyə çalışır ki, narahat olmağa heç bir əsas yoxdur.

Hava limanında olarkən gördüklərimizdən biri də budur ki, hər iki terminalın qarşısında kafe var. Burda da insan sıxlığını müşahidə etmək olur. Hava limanının ərazisinə heç bir yoxlamadan keçmədən daxil olmaq mümkün olduğu üçün buraya da rahat şəkildə gəlmək mümkündür.

**Mövzu ilə bağlı AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski** ilə də əlaqə saxladıq. P.Kəsəmənski Heydər Əliyev Beynəlxalq Hava Limanında, eləcə də ölkənin bütün regionlarındakı aeroportlarda təhlükəsizlik tədbirlərinin gücləndirildiyini bildirdi. AZAL rəsmisi digər ölkələrdə baş verən terror hadisələrindən, Belçikada baş verən partlayışlardan sonra AZAL rəhbərliyinin tapşırığı ilə əlavə tədbirlərin görüldüyünü söylədi: **"Ölkə aeroportlarının bütün təhlükəsizlik xidməti işçiləri aviasiya təhlükəsizliyi rejiminin gücləndirilməsi ilə əlaqədar təlimat alıblar. Bütün hava limanlarında təhlükəsizlik tədbirləri yüksək səviyyədə həyata keçirilir".**

❑ **İlkin MURADOV**
**Fotolar müəllifindir**









Mehriban Hüseynova

# İlhamə Quliyevanın köməkçisi ev dustaqlığına buraxıla bilər

**Mərhum xalq artisti İlhamə Quliyevanın həbsdəki köməkçisi Mehriban Hüseynovanın həyat yoldaşı redaksiyamıza məktub yollayıb. Məktubdan aydın olur ki, M.Hüseynovanın həbs müddəti 3 ay da uzadılıb: "Növbəti məhkəmə may ayının ortalarında olmalıdır. Bu müddət ərzində həyat yoldaşım Mehriban Hüseynovanın ev dustaqlığına buraxılması üçün vəkillə birlikdə baş prokurorun I müavini Rüstəm Usubovun qəbulunda olduq.**

O bildirdi ki, müraciətinizi baş prokurora çatdıracaq. Lakin hələlik bu haqda bir xəbər yoxdur. Yaxın günlərdə bu məsələ öz həllini tapmasa, yenidən baş prokurora və cənab prezidentə müraciət edəcəyik. Hazırda istintaq gedir. Ekspertlər tərəfindən telefon danışıqları, səsyazmalar hərtərəfli dinlənilib araşdırılır. Qarşı tərəflərin də cinayətləri sübut olunarsa, onlar da istintaqa cəlb olunacaq və bu gözlənilir də. Çünki onlar məndən 45 min manat təzminat istəklərini və həyat yoldaşımı öldürmək sifarişini də məhz telefon vasitəsilə bildiriblər. Əminəm ki, istintaq bunları üzə çıxardandan sonra əsl cinayətkarlar da haqlı olaraq öz cəzalarını alacaqlar. Bu işdə əli olanlardan biri Vüqar Bəkirovdur. O, Orxan Nadirovla birlikdə başqa bir cinayət işinə görə artıq həbs olunubdur. İstintaq qurtarandan sonra hər şey bəlli olacaq. İnanıram ki, istintaq bütün qaranlıq məqamlara tam aydınlıq gətirəcək".

M.Hüseynovanın həyat yoldaşı qeyd edir ki, əvvəllər mətbuata yazılar göndərilərkən bəzi qeyri-dəqiqliklərə yol verilib. Xüsusən yazılar səhvən onun adından deyil, M.Hüseynovanın adından dərc olunub: "Bundan əvvəlki yazılarımda həyat yoldaşım Mehriban Hüseynovanın üzləşdiyi qanunsuzluqları yazmışam. Bildirim ki, əvvəlki saylarda verdiyim yazılar, sadəcə olaraq, səhvən Mehriban Hüseynovanın adından getmişdir".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 68 (6389) 1 aprel 2016




**Cümə söhbətləri**

# Ümid və qorxunun dualistik vəhdəti

**İnsan nə qədər nəfsinin cazibəsinə daxil olursa, bir o qədər xalis durumunu itirir. İnsanın öz nəfsinin cazibəsinə daxil olması və nəfsin istəklərini etməsi də şəhvani məsələlərə gətirir. Xalis durum əldə etmək istəyən insan öz nəfsinə sahib çıxmağı bacarmalı, iradəvi və Allaha xatir olan bir həyat yaşamalıdır.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Müşriklik - yalnız daş bütlərə tapınmaq deyil. İnsanın bütü onun nəfsi, öz "Mən"i də ola bilər. Əgər insan öz nəfsi istəklərini cilovlaya bilməsə, bunlar insanın bütünə çevrilər. Ona görə də həm aşkar şirkdən, həm də gizli şirkdən Allaha pənah aparmalıyıq. Eyni zamanda möminin gərək qəlbi yumşaq olsun. Möminin qəlbində kin və qəzəb yer tapmamalıdır. Bu kin və qəzəb yalnız Allah düşməninə qarşı ola bilər.

## Riqqət, çox düşünmək və İlahi xof

Bunun yollarından biri - ürəyi diri saxlamaqdır. Allahın Rəsulu (s) buyurur: **"Ürəklərinizi riqqətə gətirməyə öyrədin. Çox düşünün və Allah xofundan ağlayın".** Bəşəriyyətin tənəzzülünün bir səbəbi də Allah xofunun olmamasıdır. İnsanların qəlbində Allah xofu olarsa, onlar günah etməzlər. İnsanların ürəkləri özü-özünə formada olmaz. İnsan öz ürəyini tərbiyələndirməli, ona diqqət ayırmalıdır. Əgər biz öz səhvlərimizi, xətalarımızı, günahlarımızı xatırlasaq, bu zaman Allah xofundan şiddətlə ağlayarıq. Təqvanın göstəricilərindən biri də elə budur. Təqvalı insan etdiklərinin acı aqibətindən qorxur. Təqva o zaman meydana gəlir ki, insan Allah xofundan bir günahı tərk edir və ya etdiyi bir səhvə görə Allahdan qorxur və onun acı aqibəti üçün şiddətlə ağlayır. Peşmançılığın əməli göstəricilərindən biri də elə ürəyi riqqətə gətirərək, ağlamaqdır.

Əslində bütün mübarək günlər - insanın özünə qayıtması, öz durumu barədə düşünməsi üçün yaradılmış fürsətlərdir. Bu günlərin fərqində olan insan qəflətdə olmur, öz durumunun fərqinə varır. Belə günlər tövbə etmək, bağışlanma diləmək, günahlardan təmizlənmək üçün fürsətlər yaradır. Xüsusilə o günahlar ki, insan onlarda israr edib, onlardan tövbə etmək üçün fürsət yaranır.

## Günahda israr

Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Allah dərgahında ən böyük günah odur ki, ona mürtəkib olan insan həmin günahında israr etsin".** İnsanın qəflətdə olub, günah etməsi - mümkün olan bir məsələdir. Hər kəsin durumunda müəyyən mənəvi çatışmazlıqlar ola bilər. Günah etmək özlüyündə çox pisdir. Lakin ən faciəli budur ki, insan mürtəkib olduğu günahda israr etsin. Haram bir şeyə gözü sataşa, ona baxmaqda israr edə. İnternetdə qabağına bir haram məsələ çıxar, onda israr edər və s. Belə bir vəziyyət, bu cür büdrəmələr insanı ən zəlil hala gətirib çıxara bilər. Necə ki, insan bir xalis "Ya Allah!" deməklə ən aşağı durumdan mənəvi zirvələrə yüksəlir, eləcə də bir günahda israr etməklə ən zəlil duruma gələ bilər. Təbii ki, mühitin burada oynadığı rol - danılmazdır. Hər gün televiziya, internet, sosial şəbəkələr, yaşadığımız cəmiyyət əxlaqsızlıq, ədəbsizlik, zorakılıq, fəsad yayır. Belə bir durumda insanın özünü islah etməsi müəyyən qədər çətin olsa da, Allah dərgahında Onun razılığına çatmaq fürsəti böyük olur.

## Qulun xarlığından daha pis

Çox təəssüflər olsun ki, bu məsələlər artıq cəmiyyətin içərisinə xeyli sirayət edib. Ailələrdə yaranan söz-söhbətləri araşdıranda görürük ki, məhz hər şeyin kökündə bu kimi məsələlər dayanıb. Artıq bəzən sərhədlərin aradan getməyini eşidirik. Kişilər artıq özlərini kifayət qədər "sərbəst" aparırlar. Qadından ismətə riayət etməyi tələb edən kişilər, nədənsə özlərinin də ismətli olmalı olduqlarını unudurlar. Xüsusilə internet əsrinin, sosial şəbəkələr əsrinin olması da burada az rol oynamır.

Millətimizin kişiləri tarixən abır sahibi olub, pərdə saxlayıb, ailəcanlı olublar. Lakin təəssüflər olsun ki, bəzən onun da şahidi oluruq ki, insanlar pərdələri aradan qaldıran günahlarını ailələrində də müzakirə edirlər. Artıq bu məsələ toplumun ən böyük bəlalarından birinə çevrilib. Xüsusilə nəzərə almaq lazımdır ki, şeytanın (lən) insanı məhv etmək üçün əlində olan ən böyük vasitə - şəhvətdir.

Həzrət Əlinin (ə) bu anlamda olduqca dəyərli buyuruşu var: **"Şəhvətin qulu olmaq, qulun xarlığından daha pisdir".** Şəhvətinə qul olan bir insanın, onu nəzarətdə saxlaya bilməyən bir insanın halı, qulun halından daha aşağıdır. Çünki şəhvətinin qulu olan insan ən rəzil hallara belə düşə, kiməsə görə, nəyəsə görə quldan da aşağı vəziyyətlərə qatıla bilər.

## Günahı görmədiyi vəd olunmuşa görə tərk edən - xoşbəxtdir

Əslində mübarək dinimizin buyurduğu çox gözəl həyat tərzi var. Dinimiz şəhvət hissini tənqid etmir. Dinimiz nəzarətdən çıxmış şəhvəti tənqid edir. Əslində dinimiz insanın özünü maddi və cismani təmin etməsi üçün bütün halal yolları qoyub. Lakin buna baxmaraq, bəziləri şəhvətin quluna çevrilərək, özlərini və ətrafında olanları da bədbəxt edir. Tez-tez belə şikayətlər olur ki, kişilər qadınlardan gözlədikləri iffətə özləri yiyə durmurlar. Hələ sovet dövründə belə, millətimizin kişisinin özünüdərk sistemində əxlaqsızlığa, fəsada qarşı bir senzura var idi. Bu, əslində İslamın verdiyi töhfələr idi. Azərbaycan kişisi ailəsinə sahib çıxan olub, hər zaman ailəcanlı olub. İndi inanclı kəsim xüsusilə bunu qoruyub saxlamalıdır.

İnsan çox zaman nemətin içərisində olanda, onun fərqində olmur. Ailə, ailə mühiti, övladlar - olduqca böyük nemətlərdir. İnsan bu kimi gözəl neməti düşünüb, bütün əyri yollardan çəkilməlidir. Həzrət Peyğəmbər (s) buyurur: **"Xoş olsun o kəsin halına ki, hazır olan şəhvəti, görmədiyi vəd olunmuş yerə görə tərk edir".** Həqiqətən də şəhvətini, nəfsini özünün quluna çevirə bilən insan - çox güclü və xoşbəxt insandır.

## Vaxtdan ən səmərəli istifadə

Mübarək İslam dini təkidlə insanları Allahın verdiyi nemətlərin qədrini bilməyə, onlardan doğru-dürüst istifadə etməyə çağıran bir dindir. İslami mətnlərdə nemətlərin qədrini bilmək, onların bir vaxt əldə olmayacağına dair xeyli sayda çatdırışlar var. Belə dəyərli nemətlərdən biri də insana verilmiş vaxt, zaman nemətidir.

Həzrət Əmirəlmöminin (ə) insanları vaxt nemətinin dəyərini bilməyə çağırır. İmam (ə) buyurur: **"Vaxt sizi başqa işə məşğul edənə qədər, yaxşı iş görməyə tələsin".** İnsanın həyatında müxtəlif imkanlar, fürsətlər olur ki, Allah Təala ona yaxşı işlər görməyi inayət edir. Bu, əslində insana verilən böyük nemətdir. Bəzən insan bu işləri görməkdə səhlənkarlıq edir, fərqində olmur ki, bir vaxt bu nemət onun əlindən çıxa bilər. Bir müddətdən sonra artıq görür ki, başqa işləri görmək zərurəti yaranıb. Artıq bu zərurət öncəki fürsətləri, imkanları insanın əlindən alır.

Bəzən insan nemətlərin içərisində olanda, onların qədrini bilmir. Nemətlərin içərisində olduğunun fərqinə belə varmır. Lakin, insan düşünməlidir ki, hər bir nemətin qarşılığında Allaha şükrü olmalıdır. Bu şükrün ən düzgün forması - insanın həmin nemətdən doğru-dürüst, Allah bəyənən tərzdə istifadə etməsidir. Vaxt neməti də o cürdür. Hər yeni vaxt özü ilə birlikdə yeni məsələlər, yeni qayğılar gətirir. Bu, insan həyatının bütün sahələrinə aiddir. İstər fərdi mənəvi həyatı, istər ailə həyatı, istər iqtisadi həyatı, istər ictimai həyatı və s. Bütün sahələrdə insan öz vaxtının qədrini bilməlidir.

İslam mətnləri bizə vaxtı dəyərli bilib, ondan yaxşı işlər üçün istifadə etdikdən sonra, bunun nəticələrini də əldə saxlamağı öyrədir. İnsan bir yaxşı iş gördükdən sonra onun aradan getməsinin qarşısını da almağa çalışmalıdır. Bu münasibətlə İmam Sadiq (ə) buyurur: **"Minnət qoymaq - insanın yaxşı işini aradan aparır və onun axirət bəhrəsini yox edir".**

İnsanın vaxtını dəyərli bilib, yaxşı işlər görməsi çox müsbət haldır. Lakin minnət qoymaqla insan həm gördüyü yaxşı işi məhv edər, həm də bu yolla onun həmin işə sərf etdiyi vaxtı da boşa getmiş olar Ona görə də insan çalışmalıdır ki, yaxşı işlər görəndə, onları ixlaslı görsün. Xüsusilə də hər yaşda olan insanların fürsətləri eyni olmur. Gənclər, yeniyetmələr xüsusilə bu məsələ üzərində düşünməlidir.

## Müsibətlərdən ən müsibətlisindən qurtulmaq

Bəşəriyyət yaranandan bəri dünyada insanlar müxtəlif çətinliklər, əziyyətlər, müsibətlər, iztirablarla üzləşir. Əziz İslam mətnləri bizlərə insan üçün həqiqi müsibətin hansı müsibət olduğunu anladır. İmam Cəfər Sadiq (ə) buyurur: **"Şükür və həmd olsun Allaha ki, bizim müsibətimizi dində qərar verməyib".**

İnsan həyatına nəzər salanda görürsən ki, başdan-başa bəlalar, müsibətlər, çətinliklərlə qarşı-qarşıyadır. Onların çox böyük hissəsi dünya ilə, dünyəvi məsələlərlə bağlıdır. Bu müsibətlərin, çətinliklərin zatında ötəri məsələlər dayanır. Bəzi müsibətlər isə insanın dini ilə bağlı olur. Yəni insanın aqibəti, axirəti ilə bağlı dini məsələlərində yaşadığı müsibət - dində olan müsibətlərdəndir. Misal üçün, biri namazı tərk edir, ibadət etmir, dini məsələlərinə laqeyd yanaşır. Məhz belə müsibət - insanın dini ilə bağlı olan müsibətlərdir.

İnsanın bu həyatda öz fərdi, ictimai və ya ailə məsələləri ilə bağlı müsibət və bəlalalarla qarşılaşması adi bir haldır və bunların öhdəsindən zamanla gəlmək mümkündür. Bu bəla və müsibətlər - keçicidir. Lakin təəssüflər olsun ki, insan bəzən bir ömür həyatını yalnız öz çətinliklərini, müsibətlərini aradan qaldırmaq üzərində keçirir. Bir insanın ömrü yalnız bunları düşünməklə keçir. Lakin həqiqi mahiyyətli müsibət - aqibətin müsibəti insanı heç düşündürmür.

İnsan üçün ən ağrılı müsibət - onun dində olan müsibətidir. Dinimiz məhz bu müsibəti düşünməyə, bunu aradan qaldırmağa çağırır. Allahın buyuruşlarını yerinə yetirməmək və ya onlara laqeyd yanaşmaqdan daha böyük insan üçün nə ağrı ola bilər?! Bu müsibət insanı məhvin astanasına gətirər və insan onun barədə düşünməsə, islah etməsə, bu müsibət əbədi olaraq onunla qalar. Ona görə də əsas diqqət buna yönəlməlidir. Düzdür, həyat insanı özünə cəlb edir. O qədər cəlb edir ki, insan yalnız burada olan problemlərini, müşküllərini, çətinliklərini düşünür və axirətlə bağlı müsibəti düşünmür. Allahdan istəyirik, hər birimizə dinlə bağlı müsibəti dərk etməyi nəsib etsin.

## İnsan özünün müfəttişi olmalıdır

Əziz Əhli-Beyt (ə) bizlərə İlahi rəhməti qazanmağın yollarını öyrədir. Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Allah rəhmət etsin o bəndəyə ki, öz günahının müraqibi olar (təftiş edər, nəzarətdə saxlayar) və Rəbbindən xofu olar".** Əslində Həzrət (ə) bizlərə öyrədir ki, gərək hər bir zaman öz əməllərimizin, rəftar və davranışlarımızın müraqibəsini edək. Öz vəziyyətimizi hər zaman nəzarətdə saxlamalıyıq. Əgər rəftarlarımızı diqqətsiz buraxsaq, heç bir İlahi rəhmətə nail ola bilmərik. İnsan nə qədər bu həyatda mövcuddursa, seçimlərlə üz-üzədir. İnsan özünün razı olub-olmadığı seçimlər qarşısında qalır. İlahi rəhmət o kəsin üzərinə olar ki, rəftarlarında özünün razılığını deyil, Allahın razılığını düşünsün. İnsan öz əməllərinin fərqində olsa, düzgün seçimlər də edə bilər.

İnsanda mövcud olmalı ikinci zəruri xüsusiyyət - Allah xofudur. İnsanın daxilində ümidlə yanaşı, bir qorxu da olmalıdır. Qorxusu ona görə olmalıdır ki, aqibəti acı olar, yaxşı mənəvi vəziyyətini müəyyən müddətdən sonra əldən vermiş olar və s. Bu anlamda iki müstəvidə qorxu mövcuddur. Birinci qorxu ona deyilir ki, insan müəyyən günahlar edir və bunun müqabilində cəzalandırılacağından qorxur. İkinci və daha əsas olan qorxu isə budur ki, insan çox yaxşı mənəvi vəziyyətə malikdir və bu mənəvi vəziyyətini itirməsindən, yaxşıları əldən verməsindən, aqibətinin acı olmasından qorxur. Məhz bu qorxunu içərisində daşıyan insan heç vaxt tənəzzülə getməz və Allah ona rəhmət edər.

Allah Təala insanın rəftarlarının nəticələrinə önəm verir. İnsanın tək Allaha inamı ilə məsələ bitmir. İnsanın gərək gerçək Məada da inamı olsun. İnsan inanmalıdır ki, bu dünyada gördüyü bütün əməllərin əvəzi olacaq. Yaxşı əməllərin yaxşı, pis əməllərin isə pis əvəzi olacaq. İnsan özü üçün tək ümiddən ibarət din düzəltməməlidir ki, hər nə etsə, Allah Təala rəhimlidir və bağışlayacaq. Bunun müqabilində qorxu olmasa, insan özünü arxayınlaşdıracaq və uçuruma aparacaq.

## Əbədiyyət üçün ən yaxşı yük

Həzrət Rəsulallah (s) buyurur: **"Gözü ölümün yolunu çəkən, yaxşı əməllər görməyə çalışar".** Mömin bir bəndə üçün qəfil ölüm - bir nemətdir. Çünki o, ömrünü hər zaman ölümü xatırlamaqla keçirir, buna hazırlaşır. Bir uzun yola səfərə çıxmağa hazırlaşan şəxs və bu səfərin onun daimi yeri olacağını bilən insan, gedəcəyi yer üçün ən yaxşılardan toplamağa çalışar. Mömin anlayır ki, o biri dünya üçün ən yaxşı yük - gözəl əməldir. Bu səbəbdən, ölümə hazırlaşan yaxşı əməllər görməyə çalışar. Ölüm haqda təfəkkürümüz tövbəyə gətirib çıxarar.

Həzrət Peyğəmbər (s) buyurur: **"Kim nə ilə, hansı əməl, sifətlə ölərsə, Allah da onu həmin şeylə dirildər".** Allah etməmiş, bir günahla, günahdan tövbə etməmiş bir halda ölə bilərik. Mənfi işlərə mürtəkib olduğumuz bir vəziyyətdə ölə bilərik. Və ya Allaha bəndəçiliyi unudub, başımız dünyəvi məsələlərə qarışmış halda vəfat edə bilərik. Bu zaman Allah bizi Qiyamətdə həmin vəziyyətlə dirildər. O zaman bizim aqibətimiz necə olar?!

Bu, insan həyatının bütün sahələrinə - fərdi həyatına, ailə həyatına, ictimai həyatına, siyasi həyatına da aiddir. İnsan Allahla rabitədə, Allaha bəndə olmaq yolunda ölərsə, xoş olsun halına. Fəsad əhli isə nə qədər fəsad edərsə, bir o qədər mənfi işlərin, mənfi şəxslərin ardınca olar. Mənfi məsələlər onun bütünə çevrilər. Bu dünyada kim üçün, nə üçün can yandırırdılarsa, onlarla Qiyamətdə məşhur olar. Kim nəyi bu dünyada özünə hədəf seçirsə, Allah onu Qiyamətdə o hədəfi ilə dirildər.

**Allahım, bizə mənalı və layiqli həyat qismət et!**

**Allahım, bizləri bu dünyadan Sənə bəndə olmaq halında apar! Amin!**

YENİ MÜSAVAT
N 67 (6388) 31 mart 2016

# Siyasətçilər 1 apreldə aldadılmalarından danışdılar



**Bu gün gülüş günüdür. Bütün dünya olmasa da, əksər ölkələr 1 apreli qeyd edir. İnsanlar bir-biriləri ilə zarafatlar edirlər. Bəzi ölkələrdə bu günü “Axmaqlar günü” də adlandırırlar. Gülüş gününün tarixi və səbəbi bilinməsə də indiyə kimi müxtəlif versiyalar irəli sürülüb. Bəziləri bunu qədim Roma ilə əlaqələndirirlər. Lakin burada aprelin əvvəllərində deyil, fevralın ortasında “Axmaqlar bayramı” qeyd edilirdi. Bir qisim insan isə iddia edir ki, bu təqvim Hindistanda yaranıb.**

Amma burada da əsasən 31 martı gülüş günü kimi qeyd edirlər. Başqa fərziyyəyə görə isə 1 aprelin kökləri orta əsrlər Avropa karnavallarında nümayiş etdirilən küçə tamaşalarına (balaqan) gedib çıxır. Bir-biri ilə zarafat etmə adətini yeni illə əlaqələndirənlər də var. 16-cı əsrin ikinci yarısına qədər Avropada yeni il hazırlıqları martın sonunda başlayırdı, aprelin 1-də isə yeni il qarşılanırdı. Daha sonra Fransa kralının fərmanı ilə Yeni il rəsmi olaraq 1 yanvarda qeyd edilməyə başladı. Amma çoxları ənənələrə sadiq qalaraq 1 apreli bayram kimi qeyd etməyə davam edirdi. Köhnə adətləri yox etmək məqsədilə 1 apreldə bayram keçirənləri “1 aprel axmaqları” adlandırmağa və ələ salmağa başladılar. Rusiyada isə bu gün tam başqa əlamətdar hadisə ilə əlaqədardır. Bir dəfə Peterburq əhalisi səhər tezdən yanğından xəbər verən həyəcan siqnalının səsinə yuxudan oyanmışdı. Amma yanğın siqnalı yalandan verilmişdi və həmin gün 1 aprelə təsadüf etmişdi. Bundan sonra Rusiyada 1 aprel zarafat günü kimi qəbul edilib...

Aprelin 1-də anadan olan insanların zarafatcıl yumor hissinin güclü olduğu deyilsə də, bir sıra ölkələrdə bu gün anadan olanların həyatda bəxtlərinin gətirmədiyini düşünürlər. Bu cür düşüncədə olan ölkələr içərisində Almaniya və Avstriyanın adını misal çəkmək olar. Vaxtilə hər iki ölkədə aprelin 1-i xoşbəxt olmayan gün sayılırmış. Ona görə də bu tarixdə anadan olan adamın həyatda bəxtinin gətirmədiyini düşünüblər. Bunu isə aprelin 1-də İsa Məsihi satan İndanın anadan olması ilə əlaqələndiriblər. Şeytanın göydən yerə endiyi gün kimi dəyərləndirilən həmin tarixdə kəndlərdə heç kəs işləməzmiş.

Keçmişdən bu günə kimi televiziya, mətbuatda da bu günlə bağlı yadda qalan qeyri-adi zarafatlar olub.

Məsələn, 1962-ci ildə İsveçin yeganə televiziya kanalında 1 aprel proqramına çıxan bir texnoloq televizorun ekranına bir qadın neylon corabı keçirməklə tamaşaçıların rəngli televizorlara baxa biləcəkləri müjdəsini verib. 1 aprel 1992-ci ildə sol təmayüllü “NPR” radiosu Riçard Niksonun “Pis bir iş görmədim və bir daha pis bir iş görməyəcəm” şüarı ilə prezident seçkilərində namizəd olduğunu açıqlayıb.

Azərbaycana 1 apreli qeyd etmək ənənəsi isə SSRİ-dən xatirə qalıb. Azərbaycanda bu günlə bağlı fikirlər birmənalı deyil.

**Tanınmış politoloq Hikmət Hacızadə heç vaxt kimisə aldatmadığını, həmişə aldandığını dedi:** “Məni həmişə aldadırlar. Həmişə bir apreldə tələyə düşürəm. Çünki bu tarix yadımda qalmır. 1 aprellə bağlı başıma gələn hadisələr indi elə də yadımda deyil. Amma onu bilirəm ki, mən aldatmamışam, amma xeyli aldanmışam. Kimisə aldatmaq, zarafat etmək üçün axı gərək əvvəlcədən hazırlaşasan. O mənada mən aldatmamışam. Daha çox məktəb, tələbə, gənclik vaxtı aldanmışam. İndi vəziyyət elədir ki, kiminsə zarafat etməyə heç halı da qalmayıb. Amma yəqin ki, bu gün də məni kimsə aldadacaq. Mən zarafatı sevirəm”.

**ADP sədri Sərdar Cəlaloğlu isə bu günün gənclərə aid olduğunu düşünür:** “1 aprel zarafat günüdür, aldatma günü yox. Aldatmaq bir insanı təhqir etmək deməkdir. Aprelin 1-i yadımıza düşəndə dostlarımızla gülmək məqsədilə müəyyən zarafatlar edirik. Əvvəllər, yeni cavan vaxtlarımızda aprelin 1-də bir-birimizə prokurorluğun, polisin adı ilə zəng edib səsimizi dəyişib deyirdik ki, səni həbs edəcəyəm və sairə. Son vaxtlar aprelin 1-də evdə nəvələrim mənimlə zarafat edir, biz bunu bir oyun kimi edirik. Amma yaşlı adamlarla bir-birimizə aprelin 1-də zarafatlar etmirik. Bu, yaşla bağlı olan bayramdır. Çünki insan yaşa dolduqca zarafatdan uzaqlaşır, ciddiləşir. Zarafat əsasən gəncliyə xas olan xüsusiyyətdir deyə aprelin 1-də gənc insanlar zarafatlar edir, əylənirlər. Düşünürəm ki, yaşlı insanların aprelin 1-i ilə heç bir əlaqəsi yoxdur. Zarafat gənclər üçün yaraşıq, yaşlı insanlar üçün isə qüsurdur. Çünki zarafat qeyri-ciddiliyin əlamətidir. Qeyri-ciddilik də bizə yaraşmaz. Biz öz tay-tuşlarımızın arasında lətifələr deyib, atmacalar atıb deyib gülərik”.

❑ **Günel MANAFLI**



**“Hikmət Hacızadə:**
“Məni həmişə aldadırlar”



**Sərdar Cəlaloğlu:**
“Zarafat gənclər üçün yaraşıq, yaşlı insanlar üçün isə qüsurdur”

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Əlaqə nömrəsi (050) 264 49 99**

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

YENİ MÜSAVAT

Son səhifə

N 68 (6389) 1 aprel 2016

# Pilotlar uçuş zamanı yatır

Avropalı Pilotlar Birliyi tərəfindən aparılan araşdırma zamanı müəyyən olunub ki, Avropada hər 3 pilotdan 1-i uçuş əsnasında ən azı bir dəfə pilot kabinəsində yatır. Araşdırma zamanı Avropa səviyyəsində 6 mindən çox pilota iş əsnasında nə qədər yorulduqları ilə əlaqədar suallar verilib. İngiltərədə pilotların 43 faizi, Danimarkada 50 faizi, Norveçdə 53 faizi, İsveçdə isə 54 faizinin uçuş əsnasında ən azı bir dəfə istəmədən də olsa yatdığı üzə çıxıb. İngiltərədə isə pilotların üçdə biri oyandıqları vaxt həmkarlarını da yatmış halda tapdıqlarını deyirlər. Pilotlar isə vurğulayır ki, uzunmüddətli səfərlər, hava limanında gözləyərək keçən vaxt, gecə uçuşlarına görə uzun müddət yuxusuz qalırlar.



Almaniyada isə hər 5 pilotdan 4-ü həddindən artıq yorğunluq səbəbi ilə uçuş əsnasında səhvlər etdiyini söyləyib. İsveçdə bu nisbət yüzdə 71, Norveçdə isə yüzdə 79-dur.



## Gündə həyat yoldaşınızla üç dəfə qucaqlaşın

102 yaşlı britaniyalı Dora Rixham uzunömürlülüyünün sirrini açıqlayıb. Lenta.ru saytının xəbərinə görə, yaşlı qadın sevdikləri ilə tez-tez qucaqlaşmasını və bütün həyat situasiyaları qarşısında sakitliyini qorumasını bu səbəblər sırasında sadalayıb. O, bütün həyatı boyunca ənənəvi Britaniya yeməyi olan fiş-end-çipslə qidalanıb. Bu yemək onun atasına məxsus restoranda da hazırlanıb: "Heç vaxt həyəcanlanmayın. Mənim kimi edin - heç nəyə baxmayaraq, özünüzü tox tutun. Kişilərə isə məsləhət görürəm ki, gündə üç dəfə öz xanımlarını qucaqlasınlar. Uzun həyatın sirri ancaq bundadır".

Rixam atasının restoranında 1941-cü ildə doğulub. Qadın uzun illər bu restoranda, ardınca isə pivəxanada və gül mağazasında çalışıb. 24 yaşında ərə gedən Rixam dünyaya iki oğlan uşağı gətirib. Onun əri də 81 il yaşayıb. Maraqlıdır ki, 2015-ci ilin avqustunda Nyu-Cersi ştatının sakini, 110 yaşlı Aqnes Fenton uzunömürlülüyünün sirrini müntəzəm olaraq spirtli içki qəbul etməklə izah etmişdi. O demişdi ki, son 70 ildə hər gün üç bakal pivə və viski içib. Onun sevimli yeməkləri isə toyuq qanadı, yaşıl lobya və şirin kartof olub.

# Bu maşın qəzanı öncədən xəbər verir

Yapon alimləri sürücünün nəbzi üçün oturacağın arxasında nəzarət sistemi hazırlayıblar. Yeni sistem mümkün ürək tutması və bu zaman baş verəcək qəza haqqında sürücünü vaxtında xəbərdar edəcək. Nippon tibb məktəbinin əməkdaşları sınaq üçün aparatı sürücünün oturacağının arxasına quraşdırıblar. Beləliklə, sistem daim və real şəraitdə sürücünün normal ürək ritmlərini daim nəzarətdə saxlayır. Təhlükəli simptomların yaranması halında qurğu dərhal həyəcan siqnalı verəcək və dərhal avtomobili dayandırmağı, o cümlədən tibbi yardıma müraciət etməyi məsləhət görəcək. Layihənin rəhbəri Takao Kato qeyd edib ki, genişmiqyaslı tədqiqatın nəticəsinə görə, sürətli ürək tutmasına şahidlik edən bir sıra ümumi əlamətlər müəyyən olunub. Tədqiqat qrupu artıq sistemin geniş yayılması üçün "Toyota Motor Co" avtomobil şirkəti ilə danışıqlar aparmağa başlayıb. İstehsalçılar əmindirlər ki, onların ixtirası çoxlu insan həyatını xilas etməyə icazə verəcək.





## İt gəzintiyə çıxdı, sahibinə marixuana gətirdi

Amerikanın Missisipi ştatında gəzintiyə çıxan it öz sahibinə yarım kiloluq marixuana paketi gətirib. Kişi paketi polisə təhvil verib. İt sahibi bildirib ki, öncə heyvanın ona zibil parçası gətirdiyini düşünüb. Amma bir müddət sonra amerikan torbadan gələn qoxudan onun içindəkinin narkotik olduğunu anlayıb. İtin bu qutunu harada və necə tapdığı məlum deyil. Hüquq-mühafizə orqanları insidenti araşdırmağa başlayıb. Marixuanadan istifadəyə Amerikanın Alyaska, Kolorado və Oreqon ştatlarında qismən icazə var. Daha 21 ştatda isə tibb müəssisələrində marixuanadan istifadəyə rəsmi icazə verilib və ya yaxın gələcəkdə icazə veriləcək. Amma Missisipidə marixuanadan istifadə, onun saxlanılması qanunla qadağandır.




**QOÇ** - Qarşınızda aprel ayının ən əlamətdar təqvimi dayanmaqdadır. Amma gərək səhhətinizə fikir verəsiniz. Maraqlarınız xatirinə əzmkarlığınızı artırın və ətrafda özünüzə rəğbət qazanın.

**BUĞA** - Maddi problemləriniz olsa da, fəaliyyətinizlə bağlı müsbət nüanslar olacaq. Aldığınız hər bir təklifi razılıqla qarşılayın. Sevdiyiniz adamlara qarşı ittiham irəli sürməyin.

**ƏKİZLƏR** - Günün ümumi mənzərəsi gərginliklə müşahidə olunacaq. Amma xırdaçılığa meyl etməsəniz, eləcə də ölçülü-biçili danışsanız, bəlkə də gözlənilən sıxıntılardan qurtula bilərsiniz.

**XƏRÇƏNG** - Fəaliyyətinizdə passivlik mümkündür. Bunun səbəbini başqalarının ayağına yazmaqdansa, öz səhvlərinizi realizə edin. Sizə dəstək və məsləhət verən adamlara arxa çevirməyin.

**ŞİR** - Astroloji göstəricilər sevindirici xəbər eşidəcəyinizi bildirir. Ola bilsin ki, ürəyinizcə olan təklif də alasınız. Belə məqamlarda tərəddüd etməkdənsə, qəti qərar çıxarın.

**QIZ** - Ümumi çalarlarına görə bu təqvim mənfi müstəviyə daha yaxındır. Bütün görüş və müzakirələri, ciddi planları təxirə salmağınız məsləhətdir. Saat 15-16 arası aldanma ehtimalınız da var.

**TƏRƏZİ** - Təxminən saat 14-ə qədər ümumi ovqatınız qənaətbəxş olacaq. Əzmkarlığınızı artırsanız, hətta şəxsi büdcənizdə artım da labüddür. Nahardan sonra isə mübahisəyə cəlb oluna bilərsiniz.

**ƏQRƏB** - Bürcünüzün ən ideal günlərinin startı məhz bu təqvimdən etibarən veriləcək. Narahatçılığınıza o qədər də ehtiyac yoxdur. İştirakçısı olduğunuz hər bir sövdələşmə uğurla nəticələnəcək.

**OXATAN** - Qərarlarınızda qəti olsanız, ulduzlar sizə "hə" deyəcək. Yaxın günlər üçün nəzərdə tutduğunuz planları həyata keçirməkdə dostlarınızın dəstəyindən bəhrələnməyiniz vacibdir.

**OĞLAQ** - Dünəndən Ay bürcünüzə girdiyindən qarşınızda duran vəzifələri həll etmək üçün şansınız azdır. Gərgin ab-hava, daxili süstlük və səhhətinizdəki problemlər sizə mane ola bilər.

**SUTÖKƏN** - Olduqca romantik bir gün yaşaya bilərsiniz. Sadəcə olaraq, bunun üçün mövcud məişət problemlərini unudub daha bəşəri ideyalara söykənməlisiniz. Müəyyən miqdarda qazanc da mümkündür.

**BALIQLAR** - Bazar günü olduğunu nəzərə alıb əsas vaxtınızı istirahətə yönəldin. Çünki bu gün hansısa ciddi cəhdinizin reallaşma ehtimalı yoxdur. Günün ikinci yarısında mübahisələrdən yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Maşını içindəki uşaqla birgə qaçırdılar



8 yaşındakı qızını maşında qoyan ana bunun cəzasını çəkdi. Amerikanın Dallas şəhərində bir qadının mühərrikini söndürmədiyi, içində qızını da qoyduğu maşını oğurlanıb. Maşınını gözəllik mərkəzinin qabağında qoyan, kiçicik bir işini həll etmək üçün içəri girən qadın bir anda maşınının oğurlandığını görüb. Bunu görən kimi mərkəzdə işləyən bir qadınla maşının dalınca qaçan qadın onu saxlamağa nail ola bilməyib. Nəticədə isə qadın eyni gündə həm uşağını, həm də maşınını itirib. Dallas polisi hazırda araşdırma aparır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750